

***Tofiq Mustafazadə***
*Azərbaycanın beynəlxalq əlaqələr tarixi şöbəsinin müdiri, tarix elmləri doktoru, professor*



***Güntəkin Nəcəfli***
*Azərbaycanın XV-XVIII əsrlər tarixi şöbəsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent*

# Azərbaycan xanlıqları
# (XVIII əsrin II yarısı)

XVIII əsrin ortalarında Azərbaycan ərazisində müstəqil və yarımmüstəqil dövlətlər qismində xanlıqlar yarandı. Quba və Şəki xanlıqları istisna olmaqla bütün xanlıqlar 1747-ci ildə Nadir şah Əfşarın sui-qəsd nəticəsində öldürülməsindən sonra yaranmışdı. Azərbaycanın şimal hissəsində Quba, Şəki, Şamaxı, Bakı, Dərbənd, Cavad, Salyan, Lənkəran (Talış), Gəncə, İrəvan, Naxçıvan və Qarabağ, cənub hissəsində isə Urmiya, Təbriz, Xoy, Qaradağ, Ərdəbil, Sərab, Marağa, Maku və Zəncan xanlıqları yaranmışdı. Qarabağ və Qaradağ xanlıqları istisna olmaqla bütün xanlıqlar öz mərkəz şəhərlərinin adı ilə adlanırdı.

Xanlıqlar yarandığı vaxtdan etibarən daha çox torpaq və əhali resursları ələ keçirmək uğrunda bir-biri ilə mübarizəyə başladı. Bəzən bu mübarizə Azərbaycan torpaqlarının vahid bir siyasi mərkəzdə birləşdirilməsi cəhdləri ilə də müşahidə olunurdu. İlk vaxtlar Şəki, Urmiya, Qarabağ, daha sonra isə Quba xanlıqları bu prosesdə daha çox fərqləndilər.

Necə oldu ki, Azərbaycan klassik orta əsrlərdə keçdiyi siyasi parçalanma mərhələsinə yenidən qayıtdı? Bunun əsas səbəbi əsrin birinci yarısında baş verən qiyamlar, üsyanlar, xarici hərbi müdaxilələr nəticəsində iqtisadiyyatın tənəzzülü, ayrı-ayrı vilayətlər və bölgələr arasında iqtisadi əlaqələrin zəifləməsi və qapalı təsərrüfatın yenidən üstünlük təşkil etməsi olmuşdur. Əvvəlki dövrlərə nisbətən

XVIII əsrin ortalarında yaranmış dövlətlər həm ərazisinə, həm də əhalisinə görə daha kiçik idilər.

Onu da qeyd etmək lazımdır ki, xanlıqlar dövrünün tarixi-coğrafi ərazisi müəyyən istisnalarla Azərbaycanın tarixən formalaşdığı coğrafi ərazini özündə əks etdirmişdir. Burada etnik və siyasi sərhədlərin də üst-üstə düşdüyünü izləmək mümkündür.

### *Xanlıqların yaranması*

1747-ci il iyunun 19-dan 20-nə keçən gecə Yaxın və Orta Şərqin son böyük fatehi olan Nadir şah Əfşar saray əyanlarının sui-qəsdi nəticəsində öldürüldükdən sonra onun nəhəng imperiyası çoxlu xırda hissələrə parçalanmışdır. O cümlədən Azərbaycanda 20-dən çox xanlıq adlandırılan müstəqil və ya daha güclü qonşularından asılı olan kiçik dövlətlər yaranmışdır.

Qeyd edək ki, xanlıq daxili idarəçilikdə müstəqilliyə malik olan inzibati-ərazi vahidi kimi hələ xeyli əvvəllərdən bəzi vilayətlərdə vardı. Quba xanlığı bir inzibati-ərazi vahidi kimi XVII əsrin 70-ci illərindən mövcud idi. Nadir şahın imperiyası dağıldıqdan sonra isə yeni mərhələyə qədəm qoydu. Dağların və keçilməz meşələrin, müdafiə tikililərinin çoxluğu əhalinin təhlükəsizliyi üçün təminat yaradırdı. Bu səbəbdəndir ki, Quba xanlığı getdikcə güclənərək Azərbaycanın siyasi həyatında mühüm rol oynamağa başladı. 1758-ci ildə atasının ölümündən sonra hakimiyyətə gəlmiş Fətəli xan zamanın görkəmli dövlət xadimi, bacarıqlı sərkərdə və diplomatı olmuşdur. O, Quba xanlığının iqtisadi və hərbi qüdrətini artırmış və Azərbaycan torpaqlarını birləşdirmək uğrunda gərgin və çətin mübarizə aparmışdır.

Lənkəran (Talış) xanlığı muxtar inzibati-ərazi vahidi kimi XVII əsrin sonlarından mövcud idi. Həmin bölgədə Astara və Qızılağac sultanlığı da mövcud idi. Xanlığı idarə edən sülalənin əsasını Səfəvi nəslindən olan Seyid Abbas qoymuşdur. Onun davamçıları Mir Abbas və Mirəziz xan, xanlığın ilk müstəqil xanı isə Cəmaləddin Mirzə bəy (Qara xan) olmuşdu. Qara xan xanlığın ərazisini genişləndirərək bütün Talış bölgəsini öz hakimiyyəti altına almış və uzun müddət xanlığın ərazisini tutmaq istəyən Gilan hakimi Hidayət xanla mübarizə aparmışdır. O, qubalı Fətəli xanla ittifaq yaradaraq, sonralar onun asılılığına düşmüş və 1783-cü ildə Quba xanının Qarabağ və Gilan xanlıqlarına olan yürüşlərində iştirak etmişdir. Fətəli xanın ölümündən sonra xanlıq Qubanın asılılığından çıxmışdır.

Şəki xanlığı 1743-cü ildə Nadir şahın məmurlarının özbaşınalığına qarşı mübarizə nəticəsində yaranmışdı.[1] Xanlığın banisi Hacı Çələbi Qurban oğlu XVI əsrdə Şəkinin müstəqil hakimi olmuş Dərviş Məhəmməd xanın nəslindən idi. Nadir şahın qətlindən sonra əlverişli şəraitdən istifadə edən Şəki xanı Hacı Çələbi

[1] Bax: Kərim Ağa Fateh. Şəki xanlarının müxtəsər tarixi. // Şəki xanlığının tarixindən. Bakı, 1993, s.15-16.

xanlığı möhkəmləndirmək və ərazisini genişləndirmək istədi. O, Şamaxı xanı və Car-Balakən camaatlığının qüvvələri ilə birgə 1748-ci ildə Qarabağın mərkəzi Bayat qalasını bir aydan artıq mühasirədə saxlasa da qalanı ala bilmədi.

1752-ci ildə Gəncəyə yürüşə hazırlaşan Kartli çarı Teymuraz və onun oğlu Kaxet çarı II İrakli hiyləyə əl ataraq bir sıra Azərbaycan xanlarını Şəki xanlığına qarşı danışıqlar aparmaq üçün Gəncə yaxınlığına dəvət etdilər. Qarabağ, Gəncə, Qaradağ, İrəvan və Naxçıvan xanları bu dəvəti qəbul edib Qızıl Qaya adlı yerə gəldilər. Pusquda dayanan gürcü çarları xanları əsir götürüb Gürcüstana yola düşdülər. Gürcü çarları xanları girov saxlayıb onların taxtlarına öz tərəfdarlarını oturdub bu yolla xanlıqları özlərindən asılı salmaq istəyirdilər. Hadisədən xəbər tutan Hacı Çələbi xan Kürü keçərək Gəncəyə tərəf hərəkət etdi və xanları azad edərək düşməni Tiflisə qədər qovdu. "Qızıl Qaya xəyanəti" adlandırılan və el arasında zərb-məsələ çevrilən bu hadisə bir daha göstərdi ki, Azərbaycan xanları birləşib ümumi düşmənə qarşı vahid cəbhədə mübarizə aparmalıdırlar. 1755-ci ildə Hacı Çələbinin ölümündən sonra hakimiyyət uğrunda mübarizələr nəticəsində Şəki xanlığı xeyli zəifləmişdir.

Qarabağ xanlığının banisi Pənahəli bəy Cavanşir tayfasının Sarıcalı oymağından idi. O, böyük qardaşı Fəzləli bəylə birlikdə Nadir şahın sarayında qulluq etmiş, lakin 1738-ci ildə qardaşı Fəzləli bəy kiçik bir günah üstündə edam edildiyindən saraydan qaçmışdı. Bir müddət Zəngəzur yaylaqlarında gizlənmiş, sonra ətrafına tərəfdarlar toplayaraq Gəncə, Naxçıvan, Şəki və digər inzibati mərkəzlərə yürüşlər etmişdir. Onun tərəfdarlarının sayı 20 min nəfərə çatırdı.

Şahın qətlindən sonra özünü müstəqil xan elan edən Pənahəli xan 1748-ci ildə Kəbirli mahalındakı Bayat qalasını xanlığın iqamətgahına çevirir. Bundan sonra Qarabağın xristian məliklərinin təhriki ilə şəkili Hacı Çələbi xan Qarabağa hücum edir. Bir aylıq mühasirədə məqsədinə nail olmayan Hacı Çələbi geri dönərkən demişdi: "Pənah xan bu vaxtacan bir sikkəsiz gümüş idi, biz gəldik, ona sikkə vurduq və qayıtdıq".[2] Bayat savaşından sonra məlum oldu ki, Bayat qalası düzənlikdə yerləşdiyi üçün düşmənin uzunmüddətli mühasirəsinə duruş gətirmək iqtidarında deyildi. Buna görə də 1752-ci ildə Tərnəkütdə Şahbulağı adlı yeni qala inşa olundu və xanlığın iqamətgahı bura köçürüldü. Bayat və Şahbulağın coğrafi baxımdan əlverişli yerdə olmaması daha alınmaz qala tikmək üçün yeni yerin seçilməsini zəruri etmişdi. Bunun üçün toplanmış məclisdə Pənahəli xan demişdi: "Biz gərək dağların içində, möhkəm və keçilməz yerdə elə bir əbədi və sarsılmaz qala tikək ki, onu güclü düşmən belə mühasirə edə bilməsin".[3] Beləliklə, Azərbaycanın qədim yaşayış məskənlərindən biri olan əlçatmaz yaylaq yerində Şuşa şəhər-qalası tikildi.

---

[2] Mirzə Adıgözəl bəy. Qarabağnamə // Qarabağnamələr, I kitab, Bakı, 1989, s.35.
[3] Mirzə Camal Cavanşir. Qarabağ tarixi // Qarabağnamələr, I kitab., s.115.

Qarabağ xanlığı tərkibində Xəmsə məlikləri adlandırılan beş xristian məlikliyin olması ilə digər xanlıqlardan fərqlənirdi. Onlardan yalnız biri – Xaçın məlikliyi yerli olub, qədim Albaniya (Qafqaz) dövlətinin hökmdarları nəslindən olan Həsən Cəlalın törəmələri idilər. Onun ərazisi cənubda Qarqar çayından başlayıb, şimalda Qabartıda, qərbdə Qırxqız və Mıxtökən dağından şərqdə Bayat meşəsinə qədər uzanırdı.[4] XIV əsrin sonlarından etibarən bu ailənin nümayəndələri Alban (Gəncəsər) katolikosluğunun taxtına da irsi olaraq sahib idilər. Dizaq məlikliyinin banisi məlik Yeqan (Məlik Avan) Loridən qaçıb gəlmiş və Nadir şahın etimadını qazandığına görə 1744-cü ildə şah tərəfindən bütün məliklərin vəkili təyin edilmişdi. XVII əsrin əvvəllərindən onların iqamətgahı Tuğ kəndində yerləşirdi. Gülüstan məlikliyinin mərkəzi əvvəllər Talış kəndi, sonralar isə Gülüstan qalası olmuşdur. Bu məlikliyin baniləri Bəylər oğulları udin idilər və Qəbələ mahalının Nic kəndindən Qarabağa köçmüşdülər. Vərəndə məlikliyinin başçısı Şahnəzər əslən Göyçə mahalından idi. Mərkəzi Çiləbörd qalası olan eyni adlı məlikliyin əsasını qoyanlar isə Qarabağa Zəngəzurdan gəlmişdilər.

Abşeron yarımadasında mərkəzi Bakı şəhəri olan Bakı xanlığı yaranmışdı. Xanlığın əsasını qoyan Mirzə Məhəmməd xan XVIII əsrin 20-30-cu illərində Bakı hakimi olmuş Dərgahqulu xanın törəməsi olub uzun müddət Nadir şahın Xəzərdəki hərbi donanmasının rəisi olmuşdu. Nadir şah qətlə yetirildikdən sonra Mirzə Məhəmməd xan vaxtilə şahın Bakıya təyin etdiyi naibi qovaraq özünü müstəqil xan elan etdi. Bu xanlığın ərazisi çox kiçik, hərbi qüvvəsi az olsa da, Bakının Xəzər sahillərində ən böyük və əlverişli liman olması xanlıqda xeyli miqdarda neft və duz hasil edilməsi sayəsində mühüm ticarət-iqtisadi və strateji əhəmiyyət kəsb edirdi.

Keçmiş Qarabağ (Gəncə) bəylərbəyliyinin mərkəzi hissəsində Qarabağ bəylərbəylərinin nəslindən olan II Şahverdi xan Ziyadoğlu Qacar öz hakimiyyətini qoruyub saxlaya bilmiş və özünü Gəncə xanı elan etmişdi. II Şahverdi xan (1748-1768) hakimiyyətinin ilk illərində Qarabağ xanlığı və Car-Balakən camaatlığı ilə dostluq münasibətində olmuşdur. Bir müddət Şahverdi xanla Pənahəli xan gürcü çarı II Teymuraza qarşı birləşsələr də, sonralar aralarında olan ixtilaf nəticəsində Pənahəli xan Gəncəni mühasirəyə alsa da tuta bilməmişdi.[5]

Azərbaycanın şimal-şərq ucqarında Dərbənd şəhəri və onun ətrafını əhatə edən kiçik Dərbənd xanlığı yaranmışdı. Xanlığın banisi Məhəmməd Hüseyn xan əhali və əyanlar arasında nüfuz qazana bilməmişdi. Bundan yararlanan Qubalı Fətəli xan 1759-cu ildə Dərbəndi tutub Məhəmməd Hüseyn xanı həbs etmiş, Dərbəndi isə öz xanlığına birləşdirmişdi.

---

[4] Bax: Mirzə Yusif Qarabaği. Tarixi Safi // Qarabağnamələr, II kitab, Bakı,1991, s.13.

[5] Альтман М.М. Исторический очерк города Гянджи с 1606 по 1804 г., ч. II // AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivi, sənəd 186, s.148.

Keçmiş Şirvan bəylərbəyliyinin mərkəzi hissəsində iki xanlıq yaranmışdı. Mərkəzi Yeni Şamaxı (Ağsu) olan ərazidə hakimiyyəti Nadir şahın vergi yığanı olan Məhəmməd xan ələ keçirsə də sakinlərin üsyanı nəticəsində şəhərdən qovulmuşdu. Qardaşı Adil şahı devirərək qısa müddətdə (oktyabr 1748) hakimiyyətdə olan İbrahim şah Hacı Məhəmmədəli xanı Şamaxı xanı elan etmişdi.[6] Köhnə Şamaxıda isə Xançobanı tayfasının Sərkarlar nəslindən olan Əsgər bəyin oğlu Məhəmməd Səid özünü xan elan etmişdi. Yeni Şamaxı əhalisinin Hacı Məhəmmədəli xana qarşı narazılığından istifadə edən Məhəmməd Səid xan qardaşı Ağası xanın köməyi ilə 1763-cü ildə Yeni Şamaxını ələ keçirib bu torpaqlar üzərində özünün tək hakimiyyətini qura bildi. Birləşdirilmiş Şamaxı xanlığı bir müddət sonra Quba xanı və onun müttəfiqi şəkili Hüseyn xanın hücumuna məruz qaldı və 1768-ci ildə Quba və Şəki xanlıqları arasında bölüşdürüldü.

Kür və Araz çaylarının qovuşduğu yerdə Tale Həsən xan ərazisinə və əhalisinə görə digər Azərbaycan xanlıqlarından nisbətən kiçik olan Cavad xanlığının əsasını qoymuşdu. Daha güclü qonşuları ilə mübarizədə himayəyə ehtiyac hiss edən Tale Həsən xan 1768-ci ildə könüllü surətdə qubalı Fətəli xandan vassal asılılığını qəbul etmişdi.

Kür çayının mənsəbində daha kiçik bir xanlıq – Salyan xanlığı (tarixi ədəbiyyatda çox vaxt sultanlıq adlandırırlar) yaranmışdı. Nadir şahın qətlindən sonra buranı Əhməd adlı şəxs, onun ölümündən sonra isə uzaq qohumu İbrahim Rudbarlı idarə etmişdi. 1756-cı ildə o zaman Quba xanı Hüseynəli xanın vəliəhdi olan Fətəli bəy Salyanı ələ keçirmiş və bu ərazini Quba xanlığına birləşdirmişdi.

Azərbaycanın qərb hissəsində yerləşən Naxçıvan xanlığının əsasını kəngərli tayfa başçısı Heydərqulu xan (1748-1763/64) qoymuşdu. O, xanlığı möhkəmləndirmək, ticarət və sənətkarlığı inkişaf etdirmək məqsədilə bir sıra tədbirlər həyata keçirmişdi. Qarabağlı Pənahəli xanla müttəfiq olan Heydərqulu xan 1752-ci ildə Şəki xanı Hacı Çələbiyə qarşı ittifaqda iştirak etmiş, lakin bu istənilən nəticəni verməmişdi. XVIII əsrin 60-80-ci illərində hakimiyyət uğrunda gedən mübarizə xanlığın zəifləməsinə səbəb olmuş, nəticədə Naxçıvan xanlığı, Xoy, Qarabağ, İrəvan xanlıqları, Kartli-Kaxet çarlıqları və İran hökmdarları arasında mübarizə obyektinə çevrilmişdi.

İrəvan xanlığının əsasını keçmiş Çuxursəd (İrəvan) bəylərbəyliyinin ərazisində xalq üsyanına başçılıq etmiş, hələ Nadir şahın sağlığında İrəvan hakimi olmuş Mir Mehdi xan Qasımlı-Əfşar (1747-1748) qoymuşdur. O, digər Azərbaycan xanları kimi, öz xanlığının ərazisini genişləndirmək siyasəti yeridərək

[6] Санкт-Петербургский филиал Архива Российской Академии Наук (ПФАРАН), фонд 3, оп. 33, д. 41, л. 3 и об; Чульков М.Д. Историческое описание Российской коммерции при всех портах и границах от прежних времен до ныне настоящих. т.II, кн.2, СПб., 1785, с. 623.

1748-ci ildə Urmiya xanlığına hücum etdi. Urmiyalı Fətəli xan Əfşar məğlub olaraq öz xanlığının müəyyən ərazilərini Mir Mehdi xana güzəştə getməyə məcbur oldu.

1751-ci ildə urmiyalı Fətəli xanın sərkərdəsi Azad xan (Nadir şahın keçmiş sərkərdəsi – *red.)* İrəvanı zəbt etmiş, yalnız 1755-ci ildə Həsənəli xan Qaçar İrəvanda öz hakimiyyətini bərqərar etməyə nail olmuşdu. Taxta keçən digər qardaş Hüseynəli xan Qacarın dövründə (1759/60-1783) gürcülər bir neçə dəfə xanlığa talançı hücumlar etmişdilər. Georgiyevsk traktatı (1783) bağlandıqdan sonra Tiflisdəki rus qoşunlarına arxalanan II İrakli İrəvan xanlığına təhdidlərini davam etdirirdi. Həmin dövrdə Hüseynəli xan digər Azərbaycan xanlıqları və Osmanlı dövləti ilə əlaqələri möhkəmləndirərək gürcü çarına bac verməkdən imtina etmişdi.

Azərbaycanın cənubunda – Urmiya gölünün qərb və cənub sahilində Urmiya xanlığı yaranmışdı. Xanlığın əsasını Nadir şahın sərkərdələrindən biri olmuş Fətəli xan Araşlı Əfşar (1747-1763) qoymuşdur. Onun qonşu xanlıqları tabe etmək siyasəti geniş vüsət almış və obyektiv olaraq Azərbaycan torpaqlarını birləşdirmə siyasətinə çevrilmişdir. Vaxtilə Nadir şahın sərkərdəsi olan əfqanlı Azad xanı və onun qoşununu öz tərəfinə çəkmiş Fətəli xan Ərdəbil və Maku xanlığından başqa digər cənub xanlıqlarını özündən asılı vəziyyətə sala bilmişdir. O, 1759-cu ildə Qarabağa hücum edərək bu xanlığı qısa müddətə öz asılılığında saxlaya bilmişdir. Sonra Fətəli xan şah taxtına iddiaçılar – Kərim xan Zənd və Məhəmməd Həsən xanla toqquşmuş, 1763-cü ildə məğlubiyyətə uğramış və Kərim xanın göstərişi ilə edam edilmişdi. Bundan sonra Urmiya xanlığı xeyli zəifləmişdir.

Urmiya gölündən şimalda yerləşən Xoy xanlığının əsasını Nadir şahın əmri ilə qətlə yetirilmiş Xoy hakiminin oğlu Şahbaz xan Dünbuli (1747-1763) qoymuşdu. Xoy xanlığı Dünbuli Əhməd xanın (1763-1786) dövründə güclənərək bir müddət İrəvan, Naxçıvan və Qaradağ xanlıqlarını özündən asılı sala bilmişdi.

Urmiya xanlığından şərqdə əsası Əliqulu xan Müqəddəm (1748-1763) tərəfindən qoyulmuş Marağa xanlığı yerləşirdi. Fətəli xan Əfşar Marağa xanlığını özündən asılı vəziyyətə salsa da, 1763-cü ildə onun öldürülməsindən sonra xanlıq yenidən müstəqil oldu.

Marağa və Urmiya xanlıqlarından şimalda əsası Nadir şahın sərkərdələrindən biri olmuş Bayat tayfa başçısı Əhməd Sultan (1747-1778) tərəfindən qoyulmuş Maku xanlığı yerləşirdi. O qədər də böyük ərazisi və əhəmiyyətli iqtisadiyyatı olmayan Maku xanlığı Türkiyə ilə sərhəddə yerləşdiyindən strateji əhəmiyyətə malik idi.

Cənubi Azərbaycanın mərkəzi hissəsində əsası Dünbuli tayfasından olan Nəcəfqulu xan tərəfindən qoyulmuş Təbriz xanlığı yerləşirdi. Nəcəfqulu xan hakimiyyətini (1747-1769 fasilələrlə) möhkəmləndirmək məqsədilə Urmiyalı Fətəli

xandan yardım alaraq ondan asılı düşdü. Yaranmış vəziyyətdən istifadə edən Fətəli xan tezliklə, 1748-ci ildə Azərbaycanın ən böyük şəhəri olan Təbrizi tutdu və öz paytaxtını bura köçürdü. Fətəli xanın öldürülməsindən sonra Təbriz xanlığı müstəqillik əldə etdi.

Təbriz xanlığından şərqdə Ərdəbil xanlığı yerləşirdi. Onun əsasını Şahsevən tayfa başçısı Bədir xan (1747-1763) qoymuşdu və onu siyasi cəhətdən möhkəmləndirə bilmişdi. Təbriz və Ərdəbil xanqlıqlarının arasında əsası Əli xan Şəqaqi (1747-1786) tərəfindən qoyulmuş Sərab xanlığı yerləşirdi. Bu xanlıqdan cənubda isə əsası Zülfiqar xan Əmirli Əfşar (1747-1770) tərəfindən qoyulmuş Zəncan (Zəngan) xanlığı yerləşirdi.

Azərbaycanın cənub bölgəsində yerləşən xanlıqları birləşdirən ümumi cəhət onların ilk öncə Urmiya xanı Fətəli xan Əfşar tərəfindən xeyli müddətdə vahid dövlətdə birləşdirilməsi və Ağa Məhəmməd Qacarın hakimiyyətə gəlməsi ilə müstəqilliklərini itirməsi olmuşdur.

### *Sultanlıqlar və camaatlıqlar*

İlisu sultanlığının əsası XVI əsrin ikinci yarısında Samur və Alazan çaylarının yuxarı axarlarını əhatə edən ərazidə qoyulmuşdu. Səfəvilər dövlətinin tərkibinə daxil olan İlisu sultanları Səfəvi şahlarının Gürcüstana yürüşlərində yaxından iştirak edirdilər. Qazax sultanlığı Səfəvilər dövründə Qarabağ-Gəncə bəylərbəyiliyinin tərkibində idi. Nadir şah tərəfindən Kaxet çarı Teymurazın tabeliyinə verilən Qazax sultanlığı 1752-ci ildə Şəki xanlığının tərkibinə qatıldı.

1743-cü ildə Kaxet çarı Teymuraz şaha sədaqətini nümayiş etdirərək ona qarşı üsyan qaldırmış Givi Amilaxvari və II Sam Mirzəni tutub təslim etdiyinə görə Şəmşədil sultanlığı da Nadir şah tərəfindən gürcü çarının tabeliyinə verildi. Sonralar onun ərazisi Qazax ilə birləşdirilmiş və Qazax-Şəmşəddil sultanlığı adlanırdı. Əsrin 50-ci illərində Şəki xanlığından asılı düşən Ərəş sultanlığı 1790-cı illərdə ləğv edildi və mahal olaraq xanlığa qatıldı. Qəbələ sultanlığı da Şəki xanlığının tərkibinə daxil idi.

Car-Balakən camaatlığı uzun müddət öz müstəqilliyini qoruyub saxlaya bilsə də XVIII əsrin sonunda Şəki xanlığından asılı düşdü.

### *Xanlıqlararası münasibətlər, şah taxtı uğrunda mübarizənin gedişində Azərbaycan torpaqlarının birləşdirilməsi siyasəti*

Azərbaycan xanlıqları şah taxtına iddiaçılarla mübarizə şəraitində yaranıb, inkişaf edirdilər. İddiaçıların hər biri öz hakimiyyətini möhkəmləndirmək üçün əvvəllər Səfəvi dövlətinin tərkibinə daxil olmuş bütün əraziləri, o cümlədən zəngin

və mühüm geostrateji əhəmiyyətə malik Azərbaycan torpaqlarını tutmağa can atırdılar.

Nadir şah qətlə yetirildikdən sonra 1747-ci ilin iyulunda Məşhədə daxil olan Əliqulu xanın (Nadir şahın qardaşı oğlu – *red.*) göstərişi ilə Nadir şahın bütün oğlanları öldürüldü, hətta şahın hamilə qadınları belə qətlə yetirildi. Yalnız Nadirin nəvəsi Şahruxa toxunmadılar, çünki Şahruxun anası Səfəvi şahzadəsi olduğundan Əliqulu xan gələcəkdə çətinliyə düşərsə onu taxta çıxarıb ölkəni Şahruxun adından idarə etmək niyyətində idi.[7] Taxta çıxan Əliqulu xan tezliklə *Adil şah* təxəllüsü aldı.

Adil şahın mövqeyi möhkəm deyildi. Qardaşı İbrahim Mirzə Nadir şahın yaxın qohumu Əmiraslan xanla birləşib 1748-ci ilin yayında Adil şahı devirdilər və az sonra qətlə yetirdilər. Xorasan əyanları isə 1748-ci ilin oktyabrında Şahruxu Məşhəddə şah elan etdilər. Bundan xəbər tutan İbrahim Mirzə də bir həftə sonra özünü şah elan etdi və Şahruxa qarşı yürüşə çıxsa da, ətrafındakı hərbiçilər, o cümlədən azərbaycanlı qızılbaş tayfaları yolda onu tərk etdilər. Ordusuz qalan İbrahim şahı Şahrux şahın tərəfdarları ələ keçirib qətlə yetirdilər.

1749-cu ilin sonunda Qum şəhərinin ətrafında yaşayan türk xələc tayfaları Səfəvilər nəslinə mənsub olan Mir Seyid Məhəmmədin şah taxtına namizədliyini irəli sürürlər. Həmin ilin dekabrında Şahrux taxtdan salınıb kor edildi. 1750-ci ilin yanvarında Mir Seyid Məhəmməd II Süleyman adı ilə şah elan olundu. Tezliklə Məşhəd hakimi Yusifəli xan Cəlayiri II Süleymanı taxtdan salıb, kor Şahruxu yenidən taxta çıxardı. Şahruxun hakimiyyəti yalnız Xorasanla məhdudlaşırdı və fasilələrlə 1795-ci ilə kimi davam etmişdir.

***Urmiya xanlığının Azərbaycan torpaqlarını birləşdirmək siyasəti.***

Urmiyalı Fətəli xan İranda hakimiyyət uğrunda mübarizənin qızışmasından istifadə edərək Azərbaycan torpaqlarını vahid mərkəzdə birləşdirmək siyasətini davam etdirirdi. Azərbaycan dövlətlərinin ənənəvi paytaxtı olan Təbrizi hələ 1848-ci ildə öz xanlığının mərkəzinə çevirən Fətəli xan digər Azərbaycan torpaqlarının birləşdirilməsi üçün diplomatik danışıqlara başladı. Xoy xanı Şahbaz xan Dünbuli ilə danışıqlar aparan Fətəli xan Əfşar xanlığı özündən asılı sala bilmişdir. Xoy xanlığının Fətəli xana tabe olmasının səbəblərindən biri də məhz bu xanlığın coğrafi mövqeyi ilə bağlı olmuşdur. Təbriz mərkəz təyin olunduqdan sonra Xoy xanlığı Fətəli xanın hakimiyyəti altında olan ərazilərlə əhatələnmişdi və belə bir vəziyyətdə Şahbaz xan asılılığı qəbul etməli olmuşdu. Şahbaz xan sadiqliyinin göstəricisi olaraq ailəsini və xəzinəni Urmiya qalasına köçürmüşdü. Xoy xanlığını öz xanlığına birləşdirməyə nail olan Fətəli xan digər xanlıqlar uğrunda mübarizəyə başladı. Qaradağlı Kazım xan və asılı olmaq istəməyən digər Cənubi Azərbaycan xanlıqları ilə aparılan mübarizə Fətəli xanın üstünlüyü ilə keçdi. Marağa xanlığı

[7] Lohkhar L. Nadir shah. A critical stadi based mainly upon contemporary cources. London, 1938, p. 263.

1748-ci ildə Fətəli xandan asılığı qəbul etmiş, ardınca Fətəli xan Qaradağ və Sərab xanlıqlarını da tabe edə bilmişdir. Beləliklə Ərdəbil və Maku istisna olmaqla digər Cənubi Azərbaycan xanlıqları Fətəli xana tabe oldular.[8]

XVIII əsrin 50-ci illərində şah hakimiyyəti uğrunda mübarizənin mərkəzi İranın mərkəzi hissəsinə keçir və siyasi meydana farsdilli tayfa olan zəndlərin iki nümayəndəsi – Kərim xan və digər farsdilli tayfanın bəxtiyarilərin nümayəndəsi Əlimərdan xan çıxır. Kərim xan Əlimərdan xanın yardımı ilə İsfahanı alıb burada özünü III İsmayıl adı ilə şah elan etmiş Mirzə Əbu Turabı özündən asılı vəziyyətə saldı. Bir müddət sonra iki müttəfiq arasında münaqişə yarandı və 1754-1755-ci illər arasında İsfahandan bir qədər aralıda baş vermiş döyüşdə Əlimərdan xan məğlubiyyətə uğradı və həlak oldu.[9]

Bundan əvvəl – 1753-cü ildə Kərim xan Zənd böyük ordu ilə Azərbaycanın cənubuna hücum etmiş, lakin avqustun sonunda Urmiyalı Fətəli xan Əfşar və müttəfiqləri tərəfindən Qəzvindən cənubda məğlubiyyətə uğradılmışdı. İsfahana qaçan Kərim xan burada qala bilməyib Şiraza çəkilmişdi. Fətəli xanın qəzəbindən qorxan Şiraz əhalisi qala qapılarını Kərim xanın üzünə bağladı. Qəmşə adlı yerdə baş vermiş döyüşdə Kərim xanın ordusunun qalıqları da məhv edildi. Vahiməyə düşmüş Kərim xan hətta Hindistana qaçmaq fikrinə düşmüşdü.[10] Lakin 1754-cü ilin iyulunda İranın cənubundakı tayfa başçılarının Kərim xana yardımı sayəsində o, Kamaric bölgəsində əfşar və əfqan qüvvələrini məğlub edə bildi.

XVIII əsrin 50-ci illərinin əvvəllərində şah taxtına real namizədlərdən biri də Qacar tayfasından olan Məhəmmədhəsən xan idi. Yuxarıbaş qacarlarının başçısı olan Məhəmmədhəsən xan vaxtilə II Təhmasibin etimad-üd-dövləsi (baş vəzir – *red)* olmuş və 1726-cı ildə qətlə yetirilmiş Fətəli xan Qacarın oğlu idi. O, aşağıbaş qacarların nümayəndəsi Zaman bəyi öldürüb Mazandaranda hakimiyyəti ələ keçirdi.

Məhəmmədhəsən xan hələ 1744-1745-ci illərdə Astrabad və Mazandaranda qacarları və qonşu türkmənləri Nadir şaha qarşı qaldırmış və şahın göndərdiyi böyük hərbi qüvvənin qarşısında duruş gətirə bilməyib Türkmən çöllərinə qaçmışdı. Övladlarının şahın adamları tərəfindən qətlə yetiriləcəyindən qorxduğu üçün 1741-ci ildə anadan olmuş böyük oğlu Məhəmmədi hansısa bir seyidin oğlu kimi qələmə vermişdi, yəqin ki, elə bu səbəbdən də onu Ağa Məhəmməd deyə çağırmışdılar.

Nadir şahın qətli ərəfəsində ona qarşı mübarizə zəminində Məhəmmədhəsən xan və Əliqulu xan yaxınlaşmışdılar. Əliqulu xan şah taxtını ələ keçirdikdən sonra isə onlar arasında düşmən münasibət yaranır və qüvvəsi az olan Məhəmmədhəsən

---

[8] Bax: Dəlili H.Ə. Azərbaycanınt cənub xanlıqları (XVIII əsrin II yarısında). Bakı, 1979, s. 110.
[9] Гмелин С.Г. Путешествие по России (для исследования всех трех царств природы). т. II, ч. 1. СПб., 1785, сс. 188-189.
[10] Bax: Dəlili H.Ə. Azərbaycanınt cənub xanlıqları.., s.113.

xan yenə Türkmən çöllərinə qaçır. Əliqulu xan türkmənləri Məhəmmədhəsən xanın iki oğlunu ona verməyə məcbur edir və o zaman altı yaşında olan Ağa Məhəmmədi gələcəkdə hakimiyyətə iddiasına yol verməmək məqsədilə axtalatdırır.[11] Əliqulu xan həlak olduqdan sonra Ağa Məhəmməd xan atasının yanına qaçır. 1750-ci ilin əvvəlində Xorasanda hakimiyyətə gələn II Süleyman şah (Səfəvi nəslindən olan Mir Seyid Məhəmməd) Məhəmmədhəsən xana Astrabad vilayətinin hakimliyini tapşırmış və yeni mövqeyindən istifadə edən Məhəmmədhəsən xan tezliklə hakimiyyətini Mazandarana və Gilana yaya bilmişdi.

Xeyli qüvvətlənmiş Məhəmmədhəsən xan şah taxt-tacı uğrunda mübarizəyə qoşularaq 1752-ci ildə Kərim xan Zəndi məğlub edir. 1755-ci ilin yazında isə onu tamamilə məhv etmək üçün mərkəzi İrana yürüş edir. Rəqibini yenidən məğlubiyyətə uğradıb İsfahana daxil olur. Kərim xan 200-300 tərəfdarı ilə qaçıb Şirazda möhkəmlənir. Məhəmmədhəsən xan Şirazı tutmaq istəsə də, Fətəli xan Əfşarın və Azad xanın Gilanı tutmaları xəbərini eşidib geri dönür, 1757-ci ilin əvvəllərində Gilanı yenidən öz nəzarəti altına qaytarır. Həmin ildə Məhəmmədhəsən xan Təbrizi ələ keçirib Urmiya qalasını mühasirəyə aldı. Fətəli xan Əfşar üzərində qələbədən sonra Məhəmmədhəsən xan hakimiyyətini Azərbaycanın şimal xanlıqlarına da yaymaq qərarına gəlir və Qarabağ xanlığına yürüş edir. Şuşanı mühasirəyə alsa da, “Xatın arxı” deyilən yerdə Pənahəli xana məğlub olur və bu zaman İranda şahlıq uğrunda mübarizənin yenidən qızışması xəbərini alan Məhəmmədhəsən xan Qarabağı tərk edib geriyə dönməli olur. Məhəmmədhəsən xan 1758-ci ilin yazında Fətəli xan Əfşar və Şahbaz xan Xoylunun qüvvələrini cəlb etməklə İsfahan şəhərini ələ keçirdi. Bundan sonra Şiraza yürüş edərək şəhəri mühasirəyə alır. Mühasirə uzandığından ərzaq qıtlığına dözməyən qoşunu düşmən tərəfinə keçdiyinə görə Məhəmmədhəsən xan mühasirəni dayandırıb Mazandarana çəkilməli oldu. Yuxarıbaş qaçarları da daxil olmaqla bir çox müttəfiqləri onu tərk edir. Mazandaranda 1759-cu ildə zəndlərin güclü dəstəsiylə döyüşdə məğlub edildi və həlak oldu.

Məhəmmədhəsən xan öldükdən sonra Fətəli xan Əfşar Azərbaycanın cənubunda öz mövqeyini möhkəmləndirdi və hətta Qarabağ xanlığına yürüş etdi. Fətəli xanın Şimali Azərbaycanda olmasından istifadə edən Kərim xan Zənd öz qüvvələrini bərpa edib 1760-cı ilin payızında Azərbaycana ikinci yürüşə başladı. Lakin dörd ay mühasirədə saxlasa da Təbrizi ala bilmədi. Müdafiəçilərin inadlı müqaviməti və havaların soyuması Kərim xanı geri qayıtmağa vadar etdi.

---

[11] Жизнеописание Ага-Магомет-хана Каджара, основателя нынешней в Персии династии с кратким обозрением последовавших у его смерти главнейших происшествий // Сын Отечества и Северный Архив. Журнал словестности, политики и истории. Том XLIX, СПб., 1835, с. 273.

1761-ci ilin yayında Kərim xan yenidən Azərbaycana yürüşə başladı. Xoy və Salmas şəhərləri arasında Qaraçəmən düzündə Kərim xanla Təbriz və Urmiya qüvvələri arasında həlledici döyüşdə zəndlər məğlub oldular. Amma Azərbaycan xanlarının döyüşçüləri bundan arxayınlaşdılar. Bundan istifadə edən Kərim xan yeni gücləndirilmiş qoşunla qəfil hücuma keçdi. Buna duruş gətirməyən Fətəli xan Urmiya qalasına çəkilməli oldu.[12]

Bu hadisədən sonra Kərim xan Gilan rəislərinə göndərdiyi fərmanda fərəhlə Qaraçəməndə baş verən döyüşdə Fətəli xanın 3-4 min döyüşçüsünün məhv edildiyini və əsir götürüldüyünü yazaraq, həlak olanların başlarından Qaraçəməndə piramida qurulmasını əmr etdiyini bildirirdi.[13]

Urmiya qalasını mühasirəyə alan Kərim xan Fətəli xan Əfşarla düşmən münasibətdə olan Azərbaycan xanlarını da yardıma çağırdı. Doqquz aylıq mühasirədən sonra vəziyyətin ümidsizliyini görən Fətəli xan 1763-cü ilin fevralında təslim oldu. Qardaşı Zəki xanın Əlimərdan xanla birləşib İsfahanda ona qarşı qiyam qaldırdığını eşidən Kərim xan təcili ora getməli oldu. O, Fətəli xanın uzaq qohumlarından biri olan Rüstəm bəyi Urmiyaya hakim təyin etdi, Fətəli xanı ailəsi ilə birlikdə özü ilə apardı. Yolda Fətəli xan qətlə yetirildi. Kərim xan onun düşərgəsində olan bəzi Azərbaycan xanlarını guya Fətəli xan üzərində qələbəyə həsr olunacaq təntənələrdə iştirak etmək adı ilə özü ilə apardı və faktiki olaraq onları Şirazda girov kimi saxladı.[14]

### *Azərbaycan torpaqlarının birləşdirilməsi uğrunda mübarizənin davam etdirilməsi*

Birləşdirmə siyasəti aparan xanlıqlar içərisində Qarabağ xanlığının da mühüm rolu olmuşdur. Xanlıq birləşdirmə siyasəti aparmaqla yanaşı daxildəki seperatçı qüvvələrə qarşı da mübarizə aparmışdır. Pənahəli xan gücləndikcə Xəmsə məliklərinin ona qarşı müqaviməti artırdı. Xanın ən mühüm xidmətlərindən biri məliklərin bölüşdürücülük fəaliyyətinin qarşısını ala bilməsi idi. Vərəndə məliyi Şahnəzər Qarabağ xanının hakimiyyətini qəbul edərək digər məliklərlə mübarizədə ona yaxından kömək etmişdi. Pənahəli xan 1749-1755-ci illər ərzində Xaçın, Dizaq, Çiləbörd və Talış (Gülüstan) məliklərini də itaətə gətirə bilmişdi.

Bundan başqa, Pənahəli xan Qarabağ xanlığına qarşı edilən hücumların qarşısını ala bilmişdir. Hacı Çələbi xan 1748-ci il Bayat savaşında Pənahəli xan tərəfindən məğlubiyyətə uğradılmış, həmçinin Məhəmmədhəsən xan Qacarın 1757-ci ildə Qarabağa hücumu dəf edilmişdir. 1759-cu ildə Fətəli xan Əfşarın Qarabağa hücumu nəticəsində ondan asılılığı qəbul etsə də bu asıllıq uzun müddət

[12] Bax: Dəlili H.Ə. Azərbaycanın cənub xanlıqları., s. 120-121.
[13] Архив Внешней Политики Российской Империи (АВПРИ), ф. 77 Сношения России с Персией (СРП), оп. 5, 1763-1767 гг., д. 13, л. 28 и об.
[14] Dəlili H.Ə. Azərbaycanın cənub xanlıqları..., s. 121-125.

davam etməmişdir. Pənahəli xan həmçinin Xudafərin körpüsündən Kürəkçaya qədər ərazini Gəncə xanlığından, Tatev və Sisyanı Naxçıvan hakimindən, Zəngəzur və Qapanatı Təbriz xanlığından, Uşacıq günbəzindən yuxarı, Göyçə sahilinədək kolanıların yaşadığı ərazisini İrəvan xanlığından, Mehri, Güney və Çuldur mahallarını isə Qaradağ hakimindən alaraq Qarabağ xanlığının ərazisini xeyli genişləndirmişdi.[15]

İbrahimxəlil xanın (1763-1806) hakimiyyəti dövründə Qaradağ, Naxçıvan, Təbriz, Ərdəbil və Gəncə xanlıqları Qarabağ xanlığından asılı hala gətirilmişdir.

Birləşdirmə siyasəti aparan xanlıqlar içərisində Quba xanlığı daha geniş əraziləri öz xanlığı ətrafında birləşdirməyə nail olmuşdur. Hüseynəli xanın hakimiyyəti dövründə Salyan nahiyəsi Quba xanlığına birləşdirilir. Hüseynəli xanın vəfatından sonra hakimiyyətə gələn 22 yaşlı Fətəli xan (1758-1789) xanlığın mövqeyini daha da möhkəmləndirdi. O, atasının siyasətini uğurla davam etdirərək Azərbaycan torpaqlarını vahid dövlətdə birləşdirməyə çalışırdı. 1759-cu ildə Dərbənd, 1767-ci ildə Bakı, 1768-ci ildə Cavad və Şamaxı xanlıqları da Quba xanlığına birləşdirildi. Qubalı Fətəli xanın birləşdirdiyi ərazilər tarixdə Şimal-Şərqi Azərbaycan dövləti də adlandırılır.

1774-cü ilin yayında Gavduşan çölündə Quba xanlığı ilə Qaraqaytaq usmisi Əmir Həmzə və şamaxılı Ağası xanın başçılıq etdiyi bir sıra Azərbaycan və Dağıstan hakimlərinin birləşmiş qüvvələri arasında baş verən qanlı döyüşdə Fətəli xan məğlub olaraq Salyana çəkildi. Müttəfiqlər Qubanı və Şamaxını tutduqdan sonra Dərbəndi mühasirəyə alsalar da Fətəli xanın cəsur xanımı Tuti Bikə doqquz ay müddətində inadla müqavimət göstərərək şəhəri müdafiə edə bildi. 1775-ci ilin martında Dərbəndə gələn rus qoşunlarının köməyi ilə Fətəli xan düşmənləri üzərində qələbə çaldı.

Fətəli xan Qarabağ xanlığını tabe etmək üçün 1781-ci ildə iki dəfə bura yürüş etsə də, bu yürüşlər uğursuz oldu. 1783-cü ilin əvvəllərində də böyük yürüş təşkil edilmişdir. Fətəli xanın planlarına Azərbaycanın cənub torpaqlarını da şimal-şərqi Azərbaycan dövlətinə birləşdirmək daxil idi. Bu məqsədlə o, 1784-cü ilin mayında hücuma keçərək Ərdəbil və Meşkini tutdu. Onun nüfuzunun və gücünün artmasından rahatsız olan Rusiya hökumətinin tələbi ilə Fətəli xan Azərbaycanın cənub torpaqlarını tərk etməli oldu.

Beləliklə, Azərbaycan torpaqlarını vahid inzibati-ərazidə – mərkəzləşmiş dövlətdə birləşdirmək uğrunda mübarizə aparan xanlıqların bu siyasəti uğurlu nəticə vermədi. Birləşdirmə siyasətinin uğursuzluqla nəticələnməsinin müxtəlif səbəbləri olmuşdur. Bu prosesin uğurla başa çatmasını təmin edəcək güclü siyasi liderin olmaması, siyasi pərakəndəlik, natural təsərrüfatın hökmranlığı, məhsuldar qüvvələrin zəif inkişafı şəraitində Azərbaycan torpaqlarının müəyyən bir xanlığın

[15] Bax: M.Xəzani. Kitabi-Tarixi Qarabag // Qarabağnamələr, II kitab, s.116.

ətrafında birləşdirilməsi mümkün olmamışdır. XVIII əsrin II yarısında Azərbaycan torpaqlarının vahid dövlət halında birləşdirilməsi, həmçinin reğionda Osmanlı dövləti, Rusiya və Qərbi Avropa dövlətlərinin mənafelərinin toqquşması səbəbindən də sona çatmadı.

### *XVIII əsrin son rübündə Azərbaycan xanlıqlarının siyasi vəziyyəti*

***Azərbaycan torpaqlarının bölüşdürülməsi planları.*** XVIII əsrin 80-ci illərindən başlayaraq çar Rusiyasının Cənubi Qafqazı ələ keçirmək planları gücləndi. İlk öncə, Azərbaycanda və İranda mövcud olan yerli hakimləri ələ almaq, onlardan yararlanaraq bölgənin ələ keçirilməsini dinc yolla həll etmək planlarına diqqət verilirdi.

Rusiya hökuməti 1782-ci ilin əvvəllərində knyaz Qriqori Potyomkini Qafqaz işləri üzrə baş komandan, onun yaxın qohumu general Pavel Potyomkini isə Qafqaz müdafiə xəttinin rəisi təyin etmişdi. Knyaz Potyomkinin 1782-ci il 6 sentyabr tarixli göstərişinə əsasən general Potyomkin hər şeydən əvvəl müxtəlif vasitələrlə gürcü çarı II İrakli və ermənilərlə əlaqə yaratmalı idi. General Potyomkin rus qoşunlarının Cənubi Qafqaz üzrə yeni təyin edilmiş komissarı Stepan Burnaşova 1783-cü il 21 may tarixli göstərişində "...qarşıdakı yürüşlə bağlı rus qoşunlarının hərəkət edəcəkləri məntəqələrin strateji vəziyyəti, xammal ehtiyatı, qoşunun ərzaqla təminatı, Azərbaycan xanlıqlarındakı vəziyyət haqda dəqiq məlumatların toplanması" tələb olunurdu.[16]

Georgiyevsk müqaviləsi (1783-cü il 24 iyul) nəticəsində Kartli-Kaxet çarlığının Rusiyanın himayəsinə keçməsi Rusiyanın Cənubi Qafqazda, o cümlədən Azərbaycan xanlıqlarına siyasi təsirini gücləndirdi. Müqaviləyə əsasən bir neçə ay sonra Gürcüstan ərazisinə iki rus taboru yerləşdirildi. Qafqazdakı rus qoşunlarının baş komandanı general Pavel Potyomkin 1783-cü il avqustun 20-də traktat bağlanması haqqında universallarla (fərmanlarla) Azərbaycan xanlıqlarına müraciət etdi. Universallarla birlikdə göndərilən "buyruqlu məktublarda" Azərbaycan xanlarına Gürcüstanla münasibətdə onun Rusiya himayəsi altında olmasını nəzərə almaq təklif olunurdu.

Kərim xan Zəndin ölümündən (1779) bir qədər sonra İsfahanın da daxil olduğu Mərkəzi İranda hakimiyyəti ələ alan Əlimurad xan (1784-1785) şahlığa iddiasının Rusiya tərəfindən dəstəklənməsinə nail olmaq üçün elçisi Məhəmməd xanı Rusiyaya göndərərək onun şah kimi tanınması müqabilində özünün heç bir hüququ çatmadığı müstəqil Quba, Bakı, Lənkəran xanlıqlarını, habelə Qaradağ,

[16] Российский Государственный Архив Древних Актов (РГАДА), ф.23, Разряд XXIII, Кавказские дела, оп.1, дело 13, ч.5. л.86.

Qarabağ, Naxçıvan və İrəvan bölgələrini Rusiyanın xeyrinə güzəştə getməyə razılığını bildirdi.

Əlimurad xanın təklifi dərhal knyaz Q.Potyomkinin marağına səbəb olmuş, o, bu təklifdən yararlanaraq həmin ərazilər əsasında xristian "Albaniya quberniyası" yaratmağı təklif etmişdi.[17] Əlimurad xanla danışıqlar aparmaq üçün Rusiyanın səlahiyyətli nümayəndəsi polkovnik V.S. Tamara 1784-cü ilin oktyabrında İsfahana yola salınsa da, bu missiya Əlimurad xanın vəfatı (1785 fevral) və İranda siyasi vəziyyətin dəyişməsi səbəbindən heç bir nəticə verməmişdir.

***Qarabağ xanlığı üzərinə xaç yürüşünün hazırlanması.*** Azərbaycan torpaqlarını ələ keçirmək üçün II Yekaterina hökumətinin istifadə etdiyi vasitələrdən biri də Cənubi Qafqazın xristian əhalisindən yararlanmaq cəhdi idi. Hələ I Pyotr (1682-1725) dövründən həyata keçirilən bu siyasətdə – ilk növbədə gürcülər, ermənilər və Qarabağ xanlığında mövcud olan alban mənşəli xristian məliklərdən yararlanmaq planları xüsusi əhəmiyyət kəsb etmişdi.

1783-cü ilin yazında gürcü çarı II İraklinin rus qoşunları ilə birgə Gəncəyə yaxınlaşdığını öyrənən İbrahimxəlil xan tabeliyində olan Çiləbörd məliyi Məclum və Gülüstan məliyi Abovun xana xəyanətini sübuta yetirib onları həbs edə bildi. Şuşa həbsxanasından qaçmağı bacaran məliklər 1787-ci ildə Gəncə yaxınlığında Qarabağ xanlığna təşkil olunan yürüşə qoşuldular. Rusiyanın Gürcüstandakı fövqəladə nümayəndəsi polkovnik S.D.Burnaşov bu yürüşə başçılıq edirdi. Birləşmiş qüvvələr Gəncə yaxınlığına qədər irəliləyə bilsə də, yeni Rusiya-Osmanlı savaşı (1787-1791) başlandığı üçün rus qoşunları Qafqaz xəttinə geri çağırıldı.[18] Beləliklə, həmin dövrdə Qarabağ xanlığı üzərinə planlaşdırılan xaç yürüşü baş tutmadı və xanlıq öz müstəqilliyini qoruyub saxlaya bildi.

### *Ağa Məhəmməd xan Qacarın Azərbaycana I yürüşü*

Azərbaycan torpaqlarının xanlıqlar şəklində mövcud olması isə ölkənin xarici hücumlar qarşısında müdafiəsiz qoyurdu.

İranda isə mərkəzi hakimiyyət uğrunda mübarizə mərkəzləşdirilmiş dövlətin yaranması ilə başa çatmışdı. XVIII əsrin 80-ci illərin sonunda Xorasan istisna olmaqla bütün İranda hakimiyyəti ələ alan Ağa Məhəmməd xan Qacar 1794-cü ildə Tehranda özünü şah elan etsə də, keçmiş Səfəvi torpaqlarının bütövlüyünü başa çatdırmadığı üçün tacqoyma mərasimini rəsmiləşdirmədi. Buna görə də dövrün bütün qaynaqlarında Ağa Məhəmməd Qacar Azərbaycana olan 1795-ci il yürüşü zamanı xan kimi təqdim edilir.

Qacar hərbi yürüşə başlamazdan əvvəl Azərbaycan xanlarına və Kartli-

---

[17] Армяно-русские отношения XVIII веке. (1760-1800 гг.) Сб. Документов (Под редакц. М.Г.Нерсисяна), т.IV, ч. II, Ереван, 1990, с.317.

[18] Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803, СПб., ч.2, с.188, 194-195.

Kaxet çarına fərmanlar göndərərək onlardan tabeçilik rəmzi kimi ən yaxın qohumlarından sarayına girov göndərməyi tələb etdi. Azərbaycan xanlıqlarından bəziləri Ağa Məhəmməd xana qarşı ittifaq yaratmağa çalışdılar. Mirzə Camal Cavanşirin yazdığına görə, Tiflis valisi (yəni Kartli-Kaxet çarı – *red.)* İrakli, İrəvan hakimi Məhəmməd, Talış hakimi Mir Mustafa xan Ağa Məhəmməd şahın itaətini qəbul etməyəcəkləri və bir-birinə kömək edib, müttəfiq olacaqları haqqında qarabağlı İbrahimxəlil xanla birlikdə and içmişdilər.[19] Lakin Ağa Məhəmməd xanın yürüşündən əvvəl Azərbaycanın şimal xanlıqlarının ona qarşı ittifaq yaratmaq cəhdlərinə baxmayaraq, xanlıqlar arasındakı ərazi iddiaları onların vahid cəbhədə çıxış etmələrinə imkan vermədi. Şamaxı, Lənkəran, Bakı və Naxçıvan xanları öz qalalarını möhkəmləndirərək ərzaq ehtiyatı topladılar.

Ağa Məhəmməd xan 1795-ci ilin iyununda böyük ordu ilə Azərbaycanın şimalına yürüşə başladı. Qacar qoşununlarından biri Muğana, ikincisi şahın qardaşı Əliqulu xanın başçılığı ilə İrəvan xanlığına, Ağa Məhəmməd xanın özünün rəhbərlik etdiyi qoşun isə Qarabağ istiqamətində yürüşə başladı. Azərbaycanın müxtəlif bölgələrinə göndərilən Qacar ordusu hər yerdə dağıntılar törətdi. İrəvan və Naxçıvan xanlıqları bac ödəməklə asılılığı qəbul etdilər. Ağa Məhəmməd xanın Şuşa şəhərini 33 gün mühasirədə saxlaması uğursuz oldu. Buna görə də yürüş Gürcüstan istiqamətinə yönəldi. Tiflis şəhərini tutan Ağa Məhəmməd xan Qacar 1795-ci il sentyabrın 20-də küllü miqdarda qənimət və 20 min əsirlə şəhəri tərk etdi.

1795-ci ilin payızında Muğan düzünə gələn Ağa Məhəmməd Qacar 1796-cı ilin yazında burada tacqoyama mərasimi keçirdi. Sonra isə Xorasanda ona qarşı üsyan qalxması xəbərini eşidib oraya hərəkət etdi.

### *Rus ordusunun Azərbaycana hücumu*

Ağa Məhəmməd Qacarın Rusiyanın himayəsində olan gürcü çarlığına hücumu Rusiyanın regiondakı maraqlarına və nüfuzuna ağır zərbə vurmuşdu. Bu fürsətdən istifadə edən II Yekaterina general Valerian Zubovun başçılığı ilə 30 minlik ordusunu Azərbaycana göndərdi. Rusiya hökumətinin bu yürüşdə məqsədi təkcə Ağa Məhəmməd şahı cəzalandırmaq və Xəzər dənizi hövzəsində rus tacirlərinin təhlükəsizliyini təmin etməkdən ibarət deyildi. Çar Rusiyası 80-ci illərdə həyata keçirə bilmədiyi xristianlardan ibarət bufer dövlətlər yaratmaq planından əl çəkməmişdi və bu yürüş zamanı həmin planı reallaşdırmaq niyyətində idi. V.Zubova verilmiş 30 bənddən ibarət məxfi təlimatın VI bəndində açıq-aşkar rus hərbi hissələrinin Tiflisdən aşağı Kür çayı boyunca Gəncəyə doğru hərəkət edərək, buradan Qarabağa gəlməsi və burada xristianlığı bərpa etməsi

[19] Mirzə Camal Cavanşir. Qarabağ tarixi., //Qarabağnamələr, I kitab, s.122.

planlaşdırılırdı.[20] Bununla yanaşı, V.Zubova “Qarabağ xanını devirmək və hakimiyyəti yerli xristianlara vermək” barədə məxfi göstəriş də verilmişdi.[21] Plan çox gizli saxlanılsa da Azərbaycan xanlarına məlum olmuşdu.

1796-cı ilin fevralında rus ordusu Dağıstan usmisinin mülklərinə daxil oldu. Şeyxəli xan Qubadan Dərbəndə gəldi və müqavimətə hazırlaşdı.[22] 1796-cı ilin yazında V.Zubovun başçılığı ilə rus qoşunlarının Azərbaycana hücumu başladı. Mayın 2-də rus qoşunu Dərbənd şəhərinin yaxınlaşdı və V.Zubov qalanın darvazalarının açılması tələb etdi, lakin rədd cavabı aldı. Rus generalı Şeyxəli xana yardım etmək istəyən digər Şamaxı və Bakı xanlarını təcrid edə bildi. Güclü artilleriya zərbələri altında mayın 10-da Dərbənd qalası təslim oldu. [23] Şeyxəli xan hakimiyyətdən uzaqlaşdırıldı və bacısı Pəricahan xanım Dərbəndə hakim təyin edildi.

Dərbəndi aldıqdan sonra rus qoşunları iyunun ortalarına qədər Quba, Bakı, Şamaxı və Salyanı da ələ keçirdilər. Bu hadisədən sonra şəkili Səlim xan, gəncəli Cavad xan, qarabağlı İbrahimxəlil xan və naxçıvanlı Kəlbəli xan general Zubova öz itaətlərini bildirdilər.

Rus qoşunları Qubanı, Bakını, Şamaxını ələ keçirdikdən sonra bəzi Azərbaycan xanları və Dağıstan hakimləri Rusiya təcavüzünə qarşı mübarizə aparmaq üçün razılığa gəldilər. Yaranmış vəziyyətin təhlükəli olduğunu başa düşən qarabağlı İbrahimxəlil xan, şəkili Səlim xan və şamaxılı Mustafa xan V.Zubovu sui-qəsd yolu ilə öldürmək, sonra isə rus qoşunları üzərinə hücum edərək onları Azərbaycandan qovmaq haqqında razılığa gəldilər. Lakin bu işi həyata keçirəcək Nurəli bəyin ehtiyatsızlığı ucbatından bu qəsd baş tutmadı. [24]

1796-cı ilin noyabrında II Yekaterinanın qəfil ölümü və hakimiyyətə oğlu I Pavelin (1797-1801) gəlməsi ilə rus qoşunları Azərbaycandan çıxarmağa başladı.[25] Beləliklə, Rusiyanın həmin dövrdə Azərbaycan xanlıqlarını işğal etmək planı baş tutmadı.

### *Ağa Məhəmməd şah Qacarın Azərbaycana II yürüşü*

Rus qoşunlarının Azərbaycandan geri çəkilməsindən istifadə edən Ağa Məhəmməd şah 1797-ci ilin yazında ikinci dəfə Azərbaycana yürüş etdi. Azərbaycan xanlarına ünvanlanmış şah fərmanlarında onlardan qeyd-şərtsiz tabe olmaq tələb olunur, əks halda amansız şəkildə cəzalandırılacaqları ilə hədələnirdilər.

---

[20] Российский Государственный Военно-Исторический Архив (РГВИА), ф.846 Военно-Ученый Архив (ВУА), оп.16. дело 2799, лл.1-7об.
[21] АВПРИ, ф.100 Сношения России с Арменией (СРА), оп.100/3, дело 463, лл.26-26 об, 27-27об, 28.
[22] Дубровин Н.Ф. История войн и владычества русских на Кавказе, т.III, СПб.,1888, с.98; Бутков П.Г. Материалы для новой истории Кавказа. 1722-1801, ч.II, СПб., 1869, с.35-351.
[23] РГВИА, ф.77, оп.7. дело 158, л.54.
[24] Вах: Материалы для новой истории Кавказа 1722 по 1803 гг. ч.II, с.398.
[25] Дубровин Н.Ф. История войн и владычества русских на Кавказе, т.III, СПб.,1888, с.194.

Vəziyyətin çətinliyini görən irəvanlı Məhəmməd xan, lənkəranlı Mir Mustafa xan şahın tələblərini qəbul etməli oldular.

Bu yürüş zamanı da əsas hücum hədəfi Qarabağ xanlığı oldu. Qacarın birinci yürüşü nəticəsində xanlığın zəifləməsini nəzərə alan İbrahimxəlil xan müqavimətin çətinliyini anlayaraq yardım üçün Cara getdi. İbrahimxəlil xanın qalada olmaması ruh düşkünlüyü yaratdı. Şuşanın baş müctəhidi Hacı Babək şahla görüşərək ona Qurana and içdirərək əhaliyə toxunmayacağına təminat aldı. Şuşaya daxil olan Ağa Məhəmməd şah Azərbaycanın digər şimal xanlarına məktub göndərərək onun yanına gəlmələrini, yaxud ən yaxın adamlarını girov göndərmələrini tələb edir. Gəncəli Cavad xan və qubalı Şeyxəli xandan başqa digər xanlar şahın çağırışına dərhal müsbət cavab vermədilər. Bəzi xanlar (Şəki, Şamaxı) öz elçiləri vasitəsilə zahirən itaət göstərdiklərini bildirdilər.

Ağa Məhəmməd şahın Şuşada hökmranlığı uzun çəkmədi. 1797-ci il iyulun 4-də o, sui-qəsd nəticəsində öldürüldü. Ağa Məhəmməd şah Qacarın qətlindən sonra onun qoşunları tələsik cənuba doğru çəkildilər.

Bundan istifadə edən Məhəmməd bəy Cavanşir Qarabağ xanlığında hakimiyyəti ələ almağa cəhd etsə də, Şuşaya qayıdan İbrahimxəlil xan Ağa Məhəmməd şahın cənazəsini böyük ehtiramla Tehrana yola saldı. İranda hakimiyyətə gəlmiş Ağa Məhəmməd şahın qardaşı oğlu **Fətəli şah (Baba xan)** (1797-1834) bu işdən məmnun qaldı və xanın adamlarını xələt və qiymətli hədiyyələrlə geri qaytardı. Fətəli şah Qarabağ xanlığının gəlirindən başqa, Qaradağ xanlığının da gəlirlərini ona verməyi vəd etdi[26] və İbrahimxəlil xanın qızı Ağabəyim ağanı istədi. Yeddi ay düşündükdən sonra İbrahimxəlil xan nəhayət xanlığın yenidən dağıdıcı basqına məruz qalmasının qarşısını almaq üçün Fətəli şahın təklifini qəbul etməyə məcbur oldu. Ağabəyim ağa şahın hərəminə göndərildi. Xanın oğlu Əbülfət ağa da Tehran sarayına əmanət kimi göndərildi.

Beləliklə, Ağa Məhəmməd Qacarın yaratdığı dövlət təəssüf ki, Azərbaycan dövləti deyil, mərkəzi Tehran olmaqla İran dövləti kimi təşəkkül tapdı. Bu səbəbdəndir ki, dövrün qaynaqlarında Qacar xanədanına məxsus hökmdarlar Persiya şahı kimi təqdim edilir.

### *Xanlıqların xarici siyasəti*

Azərbaycan xanlıqlarının hər biri müstəqil xarici siyasət yeritməyə çalışırdı. Bu siyasətin əsas istiqamətləri, başlıca olaraq, xanlar tərəfindən öz hakimiyyətlərini daha da möhkəmləndirməyə, onu qorumağa, xarici iqtisadi əlaqələri təmin etməyə yönəlmişdi.

[26] Əhməd bəy Cavanşir. Qarabağ xanlığının 1747-1805-ci illərdə sisyasi vəziyyətinə dair //Qarabağnamələr, I kitab., s.180.

***İranla münasibətlər.*** Nadir şahın qətlə yetirilməsindən sonra Urmiya xanlığı Azərbaycanda və İranda mərkəzi hakimiyyəti ələ keçirmək uğrunda həm Kərim xan Zəndlə, həm də Məhəmməd Həsən xan Qacarla mübarizə aparırdı. Fətəli xan Əfşar Azərbaycanın cənub xanlıqlarını öz hakimiyyəti altında birləşdirməyi bacarsa da, bu proses Kərim xanın Urmiya qalasını ələ keçirməsilə iflasa uğradı.

İranda mərkəzi hakimiyyət uğrunda mübarizənin gedişində Azərbaycan xanlıqları ilə əlaqələrin möhkəmlənməsində nikah bağlanmasına və əmanətlər götürülməsinə xüsusi əhəmiyyət verilirdi. Kərim xan Zənd qubalı Fətəli xanı dinc yolla tabe edilməsinə cəhd göstərərək bu məqsədlə "nikah diplomatiyası"na əl atmışdı. 1775-1776-cı illərdə Fətəli xanla Kərim xan arasında elçilər mübadiləsi olsa da, birinci heç bir vəchlə müstəqilliyini güzəştə getmək istəmirdi. Kərim xanın müxtəlif yollarla Quba xanlığını özündən asılı etmək siyasəti baş tutmadıqda o, digər vasitələrə əl atdı. 1778-ci ildə ona arxalanan Gilan hakimi Hidayət xan Quba xanlığına müdaxilə edərək Salyana qədər olan əraziləri işğal etdi. 1779-cu ildə Kərim xan Zəndin ölümündən sonra Hidayət xanın mövqeyi zəiflədiyindən bu işğal nəticəsiz qaldı.

***Rusiya ilə münasibətlər.*** Azərbaycanın ayrı-ayrı xırda dövlətlərə – xanlıqlara parçalanması Rusiyanın təcavüzkarlıq planlarının həyata keçirilməsi üçün əlverişli zəmin yaradırdı. Rusiya Osmanlı imperiyası ilə apardığı müharibələr (1768-1774, 1787-1791) zamanı xanlıqların bitərəfliyinə nail olmağa çalışırdı.

Lakin hələlik qarşıda əsas məqsəd kimi Qara dənizə çıxış əldə etməkdən ibarət olduğundan Rusiya xanlıqlarla ehtiyatlı davranırdı. 1774-cü il Gavduşan döyüşündəki məğlubiyyətdən sonra Fətəli xan əvvəlki vəziyyəti bərpa etməyə, Rusiya ilə diplomatik münasibətləri canlandırmağa xüsusi fikir verirdi.

Kərim xan Zəndin ölümündən sonra İranda ara müharibələrinin yenidən kəskinləşməsindən istifadə edən Rusiya 1781-ci ilin iyununda kapitan qraf Voynoviçin komandanlığı altında Həştərxandan Astrabada eskadra göndərdi. Lakin Fətəli xanın diplomatik səyi nəticəsində bu gərginlik aradan qaldırıldı. Bu zaman Astrabad hakimi olan Ağa Mehdi xanın düşmənçiliyi üzündən Voynoviç qarşısına qoyduğu – ticarət faktoriyası təsis etmək məqsədini gerçəkləşdirə bilmədi. Öz əvvəlki qüdrətini bərpa etmiş qubalı Fətəli xan artıq Azərbaycanın cənub torpaqlarını da birləşdirmək və hətta öz yanında saxladığı "Abbas Mirzə" adlandırılan yalançı şahzadəni şah taxtına oturtmaq qəraqına gəlmişdi. Bu məqsədlə onun dəstəklənməsi üçün Rusiyaya müraciət edildi. Lakin Azərbaycan torpaqlarını bilavasitə özü işğal etmək niyyətində olan Rusiya Azərbaycanın birləşdirilib qüdrətli bir dövlətə çevrilməsinə razı ola bilməzdi. Buna görə də 1784-cü ilin mayında Fətəli xan döyüşsüz Ərdəbil şəhərini ələ keçirsə də Rusiyanın təzyiqi və rəqib feodalların ona qarşı qaldırılması səbəbi ilə geri dönməli oldu. 1787-ci ildə Quba xanlığının 12 nəfərdən ibarət elçisi görkəmli diplomat Mirzə Sadıq

Məmmədvəliyevin başçılığı ilə Peterburqa göndərilsə də, bu elçilik də uğur qazanmadı.

***Kartli-Kaxet çarlığı ilə münasibətlər.*** XVIII əsrin 40-80-ci illərində Azərbaycan xanlıqlarının Kartli-Kaxet çarlığı ilə münasibətləri onların xarici siyasət xəttinin mühüm istiqamətlərindəndir. Əsrin 50-ci illərində Şəki xanlığının Kartli-Kaxet çarlığı ilə münasibətləri gərgin idi. Kartli-Kaxet çarı II İrakli və oğlu Teymuraz Şəki xanlığını ələ keçirmək niyyətində idilər. Lakin Hacı Çələbi xan 1751-ci ilin fevralında carlılar, balakənlilər və dağıstanlılarla birləşərək II Teymuraz və onun oğlu İraklinin hərbi qüvvələrini dəfələrlə sarsıdıcı məğlubiyyətlərə uğratdı.[27]

1762-ci ildə Teymurazın ölümündən sonra Kartli-Kaxet çarlığını birləşdirən II İrakli Azərbaycan xanlıqlarının ərazisi hesabına öz mülklərini genişləndirmək siyasəti yeridirdi. Bir neçə il əvvəl II İrakli və İbrahimxəlil xan Gəncə xanlığının idarəçiliyini öz aralarında bölüşmüşdülər. Əsir alınmış gəncəli Məhəmmədhəsən xan (1760-1780) isə Qarabağda dustaq saxlanılırdı. 1783-cü ilin sonunda Gəncədə baş vermiş iğtişaşlar nəticəsində II İrakli və İbrahimxəlil xanın təyin etdiyi hakimlər şəhərdən qovuldular.

II İraklinin işğalçı niyyəti bununla məhdudlaşmırdı. O, daha irəli gedərək Stepan Burnaşova göndərdiyi məktubda yazırdı: "Azərbaycan torpaqlarının Rusiya tərəfindən ələ keçirilməsini və bu torpaqların bir hissəsinin isə mənə güzəştə gedilməsini münasib sayıram".[28]

Georgiyevsk müqaviləsinin bağlanmasından sonra Rusiyaya arxalanan II İraklinin Azərbaycan xanlıqlarına, o cümlədən İrəvan xanlığına qarşı işğalçılıq planları genişləndi.

***Osmanlı dövləti ilə münasibətlər.*** Azərbaycan xanlıqlarını Osmanlı dövləti ilə dil və din birliyindən başqa, Rusiya təhlükəsi daha çox yaxınlaşdırırdı. Hələ Nadir şahın sağlığında ona qarşı mübarizəyə başlamış şəkili Hacı Çələbi xan bu mübarizədə Osmanlı dövlətindən yardım istəmişdi.[29] Nadir şahın öldürülməsindən sonra isə ölkədəki qarışıqlıqların artığı üçün başda şəkili Hacı Çələbi xan olmaqla digər Azərbaycan xanları – gəncəli Şahverdi xan, şamaxılı Məhəmmədsəid xan, qarabağlı İbrahimxəlil xan, naxçıvanlı Cəfərqulu xan və b. özlərinə arxa yaratmaq məqsədilə Osmanlı dövləti ilə diplomatik əlaqələr saxlamışlar.

1768-1774-cü illər müharibəsində məğlub olan Osmanlı imperiyası Rusiya ilə münasibətlərini kəskinləşdirməkdən çəkindiyi üçün Azərbaycan xanlarının Rusiya təcavüzü qarşısında hərbi kömək üçün etdikləri müraciətlərinə kömək göstərə bilməmiş, hadisələrə diplomatik vasitələrlə müdaxilə etməyə çalışmışdır.

---

[27] Bax: Левиатов В. Очерки из истории Азербайджана в XVIII веке. Баку, 1948, с.122.
[28] Иоаннисян А.Р. Россия и Армянское освободительное движение в 80-х г. XVIII веке. Ереван, 1947, с.102.
[29] Başbakanlık Osmanlı Arşivi, Hatt-i Hümayun (BOA, HH) 5/156 və BOA, HH 7/231.

1787-1791-ci illərdə gedən Rusiya-Osmanlı savaşı zamanı da Azərbaycan xanlıqları ilə Osmanlı dövlətinin qarşılıqlı münasibətləri mühüm əhəmiyyət kəsb etmişdir. Bu müharibədə həm Rusiya, həm də Osmanlı dövləti Azərbaycan xanlıqlarını öz tərəfinə çəkməyə çalışmışdır.

XVIII əsrin 80-ci illərindən başlayaraq Cənubi Qafqaz regionunda mənafeləri toqquşan Rusiya və Osmanlı imperiyaları arasındakı münasibətlər daha da kəskinləşdi. Bu ziddiyyətlər çox vaxt Azərbaycan xanlıqlarını hər iki imperiya arasında manevr etməyə məcbur edirdi. Məhz bu səbəbdən Volqa-Xəzər tranzit su yolu ilə bağlı olan xanlıqlar Rusiya ilə, ölkənin Qərb və Cənub-Qərb hissəsində yerləşən xanlıqlar isə çox zaman Osmanlı dövləti ilə münasibətdə olurdular.

Göründüyü kimi, Azərbaycan xanlıqlarının qonşu dövlətlərlə münasibətləri onların öz müstəqilliyini qoruyub saxlamaq uğrunda apardığı mübarizənin tərkib hissəsi idi. İstər Rusiya, İstər Osmanlı dövlətləri və yaxid digər qonşu ölkələrin hakimləri bu torpaqların İranın tərkib hissəsi deyil, Azərbaycan adlandırıldığını və burada Azərbaycan xanlıqlarının mövcud olduğunu qəbul edirdilər. 1775-ci ildə Quba xanlığının İranın tərkib hissəsi olduğunu bəhanə edən Rusiya hakim dairələri, bir qədər sonra rəsmi arxiv sənədlərində Araz çayından şimaldakı Azərbaycan torpaqlarını "ölkə", "dövlət" mənasında "Aderbijanskiye vladeteli", "Aderbijanskiye voyska", "Aderbijanskiye xanı" kimi təqdim edirdilər.[30]

### *Xanlıqların sosial-iqtisadi həyatı*

***İqtisadi həyat.*** Xanlıqlar dövründə sosial-iqtisadi münasibətlər demək olar ki, Səfəvilər dövründəki münasibətlərin davamı idi və yalnız bəzi dəyişikliklər baş vermişdi. Xanlıqların iqtisadi həyatında əsas yeri kənd təsərrüfatı, ilk növbədə *əkinçilik* və *maldarlıq* tuturdu. Əhalinin çoxu kəndlərdə yaşayır, əkinçilik, maldarlıq, bağçılıq, bostançılıq, arıçılıqla məşğul olurdu. Qarabağ xanlığı ərazisinin böyüklüyünə və kənd təsərrüfatı üçün əlverişlilik səviyyəsinə görə digər xanlıqlardan müsbət mənada fərqlənirdi. Son dərəcə əlverişli iqlim şəraiti, münbit torpaqları, Kür və Araz çaylarının arasında yerləşməsi xanqlıqda kənd təsərrüfatının inkişafına zəmin yaradırdı.

XVIII əsrin II yarısında ayrı-ayrı bölgələrdə bəzi təsərrüfat sahələri üzrə ixtisaslaşma gedirdi. Quba, Qarabağ, Şamaxı, Gəncə, Şəki xanlıqlarında dənli bitkilər, Lənkəran xanlığı, İrəvan xanlığının Zəngibasar və Şərur mahalları, Şirvanın Bərgüşad mahalında çəltik, Dərbənd, Quba və Bakı xanlıqlarında qızılboya və zəfəran yetişdirilirdi. Şəki, Şirvan və Gəncə ipəkçilik mərkəzi kimi məşhur idilər. Urmiya, Marağa və Ərdəbil xanlıqlarında ipəkçiliklə yanaşı pambıqçılıq da inkişaf etmişdi. Urmiya xanlığında əkilən pambıq əsasən yerli əhalinin ehtiyacını ödəyirdi. Əla növlü pambığın müəyyən hissəsi isə

[30] РГВИА, ф.41, оп.1/199, д.384, л.20, л.21, л.25 и т.д.

Azərbaycanın müxtəlif vilayətlərində, habelə Rusiyada satılırdı.

Kənd təsərrüfatında süni suvarma müstəsna əhəmiyyətə malik idi. Xanlıqlarda xeyli suvarma arxları şəbəkəsi mövcud idi. Qarabağ xanlığnda Kürək arxı, Müqəddəs arx, Meymənə arx, Govur arxı, Araz arxı və s., Şamaxı yaxınlığında Pirsaat çayından çəkilmiş Xanarxı və Qoşqar arxlarını qeyd etmək olar.

Çayları olmayan, yaxud çox az olan yerlərdə süni suvarmada kəhrizlərdən və quyulardan istifadə olunurdu. Suvarma şəbəkəsinin genişliyi kənd təsərrüftında məhsuldarlığın artmasında xüsusi rol oynayırdı.

Kənd təsərrüfatının digər mühüm sahəsi *heyvandarlıq* idi. Heyvandarlıqda əsas yer xanlıqların təsərrüfat həyatında əvəzolunmaz rol oynayan *maldarlığa* məxsus idi. Əkinçilikdə qoşqu qüvvəsi kimi kəl və öküzlərin əvəzi yox idi. Maldarlıq həm də ev və sənətkarlıq sənayesinin mühüm xammal mənbəyi idi. Maldarlıqda iri və xırda buynuzlu heyvanlar çox önəmli yer tuturdu.

Quba, Dərbənd, Ərdəbil, Şamaxı, Gəncə, Qarabağ, Salyan başlıca maldarlıq bölgələri idi. Zəngin çəmənlik və otlaqlar Urmiya xanlığı ərazisinin demək olar ki, geniş bir sahəsini əhatə etdiyi üçün burada yüz minlərlə müxtəlif növ heyvanlar saxlayırdılar. Qarabağ xanlığında heyvandarlıq digər xanlıqlara nisbətən daha çox inkişaf etmişdi. Qoyunçuluq və atçılıq daha çox yayılmışdı. Xanlıqdan Türkiyəyə satılmaq üçün böyük qoyun sürüləri göndərilirdi. Qarabağın cins atları öz gözəlliyi, dözümlülüyü, çevikliyi və iti qaçışı ilə fərqlənirdi. İngilislər öz hind süvariləri üçün Qarabağ atları alırdılar.

Bakı xanlığının dəniz sahilində yerləşən kəndlərində *balıqçılıq* mühüm məşğuliyyət sahəsi idi. Qurudulmuş balıqla yanaşı, qara kürü də digər xanlıqlara və qonşu ölkələrə ixrac olunurdu. Gəncə xanlığının Kür çayına yaxın yerlərində balıqçılıqla məşğul olurdular.

***Torpaq mülkiyyət formaları. Vergilər.*** Xanlıqlar dövründə Azərbaycanda aqrar münasibətlərdə ciddi dəyişiklik olmamışdı. Ənənəvi olaraq əhalinin başlıca məşğuliyyəti kənd təsərrüfatı olduğundan başlıca istehsal vasitəsi torpaq idi. Torpaqların böyük qismi xanların mülkiyyətində idi. Əvvəllər mövcud olan *dövlət (xəzinə)* və *saray (xassə)* torpaqları *xan torpaqları* adlanırdı.

Torpaq mülkiyyətinin geniş yayılmış digər forması mülk üzərində mülkədarın – mülk sahibinin tam mülkiyyət hüququ var idi. *Mülk* torpaqlarını alıb-satmaq, bağışlamaq, irsən ötürmək olardı. Mülk sahibləri adətən xəzinəyə vergi ödəyirdilər. Bir sıra hallarda isə mülk sahibləri xəzinəyə vergi ödəməkdən azad idi. Belə mülklərə *mülki-xalisə* deyilirdi.

Xanlıqlar dövründə aparıcı torpaq sahibliyi forması *tiyul* idi. Xanlar öz sevimli adamlarına, yaxud məmurlara məvacib əvəzinə bir və ya bir neçə kəndi, daha doğrusu həmin kəndlərdən toplanan vergilərdən bir hissəni almaq hüququnu

verirdi. Xan tiyul verərkən onu xüsusi sənədlə təsdiq edirdi. Tiyul tədricən nəsli səciyyə alırdı. Tiyulun mülkə çevrilməsi prosesi getdikcə genişlənirdi. Tiyuldar çox vaxt kənddə yaşayır və kəndin bütün işlərini şəxsən özü idarə edirdi.[31]

Dini idarələrin, müqəddəs ocaqların mülkiyyətində olan torpaqlar *vəqf* adlanırdı. Ayrı-ayrı ruhanilərə verilmiş vəqflər də olurdu. Xanlara, bəylərə, mülkədarlara və tiyuldarlara məxsus olan torpaqların əksər hissəsi müəyyən şərtlərlə kəndlilərin istifadəsində idi. Vəqf xan xəzinəsinə vergi və mükəlləfiyyətlərdən azad idi.

*İcma* və yaxud *camaat torpaqları* əsasən kənd icmasına məxsus olurdu. İcma kəndliləri ərazi əlamətinə görə birləşdirirdi. İcmalara məxsus olan kəndlər mülk hüququ ilə həmin icmanın üzvü olan rəiyyətə məxsus idi. İcma torpaqlarının zorla tutulması nəticəsində onun sahəsi getdikcə azalırdı.[32] Urmiya xanlığının dağlıq və ucqar bölgələrində icma torpaq mülkiyyəti geniş yayılmışdır.

Xanlıqlar dövründə mövcud olan *vergilərin* sayı və miqdarı müxtəlif idi. Bu vergilər əsasən məhsulla, qismən isə pulla alınırdı. Bir qayda olaraq, vergiləri kəndlilər ödəyirdi. Bütün hakim təbəqə vergi verməkdən azad idi.

Başlıca torpaq vergisi *bəhrə* (*malcəhət)* sayılırdı. Məhsulla ödənilirdi və hərfən məhsulun hissəsi deməkdir. Kəndli istifadəsində olan pay torpağına görə məhsulun 1/10-dən 4/30-nə qədərini torpaq sahibinə verməli idi. *Salyanə vergisi* yağ, cücə, yumurta, ot və başqa məhsulla ödənilirdi. Xanın və torpaq sahiblərinin vergiləri yığmaq üçün təyin etdikləri nümayəndə *darğa* adlanırdı. Darğalar məvacib almadığından *darğalıq vergisi* onların xeyrinə toplanırdı. Qışlaqlardan, yaylaqlardan istifadəyə görə *çöpbaşı* adlanan vergi toplanırdı. Rəiyyət torpağı becərdiyi zaman kotan, yaxud xışdan, qoşqu heyvanlarından istifadəyə görə *cütbaşı* adlı verdi verməli idi. Xanlıqlarda *çobanbəyi, mancanaq pulu, toxucu pulu, bağ pulu, bayramlıq və s.* adda vergi və bəxşişlər də mövcud idi.

***Şəhərlər, sənətkalıq və ticarət.*** Xanlıqların yaranması şəhərlərin sənətkarlıq və ticarət mərkəzi kimi inkişafına şərait yaradırdı. Bu dövrdə dağıdılmış şəhərlər bərpa edilir və yeniləri salınırdı. Pənahəli xanın saldırdığı Şuşa şəhəri sürətlə inkişaf edirdi. Şəhərlərin dirçəlməsinin mühüm göstəricisi əhalinin artması idi. XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Şamaxı, Bakı, Şəki, İrəvan, Şuşa və Dərbənd şəhərlərinin hər birində 4 mindən 10 min nəfərədək əhali yaşayırdı.

*Təbriz* Azərbaycanın ən böyük şəhəri olaraq qalırdı. *Quba* şəhəri və onun ətrafındakı karxanalarda əl dəzğahlarından istifadə olunurdu. Çiçi kəndində toxunan *Xırdagül çiçi, Ağgül çiçi* adlı xalçalar xarici bazarlarda və yarmarkalarda ən rəvac mal hesab edilirdi. *Urmiyada* isə *Əfşar* xalçaları toxunurdu. *Şamaxı* şəhəri əvvəlki şöhrətini bərpa etməyə başlamışdı. *Şəki* şəhəri ipək istehsalı mərkəzi

[31] Bax: Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XIX - начале XX вв. Ленинград, 1949, с.218-219.

[32] Петрушевский И.П. К вопросу об имунетете в Азербайджане в 17-18 в.в. «Исторический сборник» №4, Москва, 1945, с.72.

kimi şöhrət qazanmışdı. Burada ipək parça toxunur, mis məmulatı hazırlanır, ağacdan şəbəkələr düzəldilirdi. Şəki ipəyi Azərbaycanın hüdudlarından kənarda da məşhur olub, Rusiya, İtaliya, Türkiyə və İrana ixrac edilirdi. *Təbriz, Ərdəbil, Marağa* və *Urmiya* şəhərlərində də ipək parçalar istehsal olunurdu.

Azərbaycan şəhərlərində sənətkarlar başlıca olaraq *sənətkar sexlərində* və ev şəraitində fəaliyyət göstərirdilər. *Metalişləmə* sahəsində Şamaxı xanlığının Lahıc kəndi şöhrət qazanmışdı. Burada xəncər, qılınc, çaxmaqlı silahlar hazırlanırdı. Azərbaycan şəhərlərində metal məmulatları satılan çoxlu dükanlar vardı. Qızıl və gümüşdən zərgərlik məmulatları hazırlanmasına da xüsusi diqqət verilirdi.

*Gəncə, Şamaxı, İrəvan, Dərbənd* şəhərlərinin yaxınlığında *dəri istehsalı* və *onun emalı* geniş yayılmışdı. *Bakıda boyaqçılıq, Təbriz* və *Ərdəbildə yun* və *ipək parçalar, zərgərlik məmulatları istehsalı* inkişaf etmişdi.

Xanlıqlarda *ticarətin* inkişafında da müəyyən dəyişikliklər özünü göstərirdi. Karvan yolu ilə, eləcə də Xəzər-Volqa vasitəsilə əcnəbi ölkələrlə qızğın ticarət edilirdi. *Daxili ticarət* xanlıqlar daxilində – dükanlarda aparılırdı. Daxili ticarətlə xarici ticarət bir-birindən təcrid olunmamışdı. *Xarici ticarət* isə Hindistan, İran, Osmanlı dövləti, Rusiya və başqa ölkələrlə aparılırdı. Azərbaycandan *neft, duz, zəfəran, xam ipək, sənətkarlıq məmulatları, çeşidli xalçalar* və s. aparılırdı. Kənardan isə *mahud, şal, boyaq malları, qənd, düyü, dəmir* və s. gətirilirdi.

Xanlıqların iqtisadi həyatında mühüm rol oynayan *sənətkarlıq* müxtəlif sənət sahələrini əhatə edirdi. Ənənəvi sənətkarlıq sahələri olan *toxuculuq* və *dulusçuluq* xanlıqlar dövründə daha da inkişaf etmişdi. Toxuculuqda *xalça-palaz məmulatı istehsalı* xüsusilə seçilirdi. Xanlıqlarda *dulusçuluq* məmulatı istehsalı yerli xammala əsaslanırdı.

Azərbaycan xanlıqlarının çoxunun öz *pul vahidi* vardı və xanlıqların mərkəzi şəhərlərində *zərbxanalar* fəaliyyət göstərirdi. Burada yalnız gümüş və mis pullar kəsilirdi. Qarabağ xanlığında *pənahabad, sahibqıran*, İrəvan xanlığında *qara pul* zərb olunurdu. Bunlarla yanaşı, Səfəvi dövründən qalma *abbası, tümən, şahı* və s. də işlədilirdi.

***Sosial zümrələr.*** Azərbaycanda xanlıqların yaranması prosesi sosial zümrələrə də bu və ya digər dərəcədə təsir göstərdi. Belə bir şəraitdə Azərbaycanın *hakim (ali) zümrəsi* formalaşmağa başladı. Xan ailəsinin üzvləri, *sultanlar, məliklər, bəylər, el başçıları, ağalar, ali ruhanilər (axundlar və qazılar)* hakim zümrəyə daxil idilər.

Ali zümrənin başında dövlətin başçısı olan *xan* dururdu. Xandan sonrakı yeri *sultanlar* və *məliklər* tuturdu. Bu titullar irsi idi. Həmin hüquq hər dəfə xan tərəfindən təsdiq edilirdi.

Hakim zümrənin əsas təbəqəsini geniş torpaq sahibi olan *bəylər* təşkil edirdi. Bəylər adətən üç qrupa bölünürdü: Hakim sülalənin nəslindən olan bəylər, köklü

bəylər, bəy adını və hüququnu alanlar. Bəylərin mülki hüququ irsi idi. Onlar kəndlilər üzərində inzibati hakimiyyətə malik olub, xanın qarşısında istənilən xidmətə hazır idilər. Bəylər xanlıqda böyük siyasi qüvvə idilər. Xan hakimiyyətinin möhkəmliyi xeyli dərəcədə bu zümrədən asılı idi.

Qarabağın alban soyköklü xristian məzhəbli əhalinin yaşadığı mahalları idarə edən şəxslər *məlik* adlanırdı. Məliklərdən beşi bu titulu hələ vaxtilə Səfəvi şahlarından almış şəxslərin nəslindən idi. Bir neçə digər məlik isə məlikliyə xan tərəfindən təyin olunaraq öz mahallarını adi mahal naibi hüququnda idarə edirdilər.

Qazax, Şəmşəddil və Borçalıda bəy hüququna malik olan və kəndləri idarə-edənlər *ağa* adlanırdı. Car-Balakən camaatlarında isə hakim sinfin nümayəndələri kovxalar, keşkəl sahibləri və qazılar idi.

Hakim zümrəyə daxil olan *elbəyilər* xan qarşısında hərbi mükəlləfiyyət daşıyırdı. Elbəyilər bir çox hallarda müəyyən xidmətlərinə, adətən müharibə zamanı göstərdikləri igidliyə görə xandan mükafat əvəzinə yarımoturaq və ya oturaq əhalisi olan torpaq sahəsi alır və beləliklə, özləri də bilavasitə əkinçiliklə məşğul olurdular. Elbəyilər müharibə zamanı tabeliklərində olan elatlarla birlikdə silahlanmış halda xanın xidmətində olmalı idilər.[33]

Ali zümrənin içərisində *ruhanilər* də mühüm yer tuturdular. Şiəməzhəb ruhanilərin başçısı *şeyxülislam*, sünnüməzhəb ruhanilərin başçıları isə *qazı* adlanırdı. Sünniməzhəb əhalinin yaşadığı xanlıqlarda dini rəhbər xanın özü idi. Quba xanlığında xan istədiyi vaxt baş qazinin işlərinə müdaxilə edə bilərdi. Şeyxül-islamlar, qazılar, axundlar və əfəndilər *ali ruhani təbəqəsinə*, mollalar, seyidlər, dərvişlər, mürdəşirlər, vaizlər isə *aşağı ruhani təbəqəsinə* aid idilər.

Azərbaycan xanlıqlarında aşağı zümrəni *kəndlilər* təşkil edirdi. Onlar *rəiyyət, rəncbər* və *elatlara* bölünürdü. Kəndlilərin çox hissəsini *rəiyyətlər* təşkil edirdi. Onlar xanlara, yaxud ayrı-ayrı şəxslərə məxsus mülklərdə pay şəklində torpaqlara malik olub öz təsərrüfatı olan kəndlilər idi. Şəxsən azad olan rəiyyətlər torpaqdan istifadə müqabilində torpaq sahiblərinə müəyyən vergilər ödəyir, bir sıra mükəlləfiyyətləri yerinə yetirirdilər.

Kəndlilərin ən ağır vəziyyətdə olan hissəsi *rəncbərlər* idi. Onlar, əsasən torpaqsız olub, xanların və ya iri torpaq sahiblərinin təsərrüfatında çalışır, bunun müqabilində məhsulun müəyyən hissəsini alırdılar.

Kəndlilərin vergilərdən azad olan digər imtiyazlı təbəqəsi *maaf* adlanırdılar. Bu rütbə xanlar tərəfindən verilir və irsi idi. Onlar xanlıqda asayiş qoruyucusu olub, həm də qoşunun əsasını təşkil edirdilər.

Yaylaq-qışlaq maldarlığı ilə məşğul olan kəndlilər *elat* adlanırdılar. Elat bəyin sürüsünü otarır, qoyununu qırxır, başqa mükəlləfiyyətlər yerinə yetirir, xana

---

[33] Петрушевский И.П. Азербайджан в XVI-XVII веках // Сборник статей по истории Азербайджана, Баку, 1949, с.13.

peşkəş şəklində vergilər verir və həm də xan qoşunu üçün əsgər verməli idi.

***İdarəçilik və inzibati bölgü.*** Azərbaycanın bəzi xanlıqlarında dövlət aparatının nisbətən iri, bəzilərində isə kiçik olmasına baxmayaraq, idarəetmə sistemi demək olar ki, eyni idi. Xanlıqlarda idarəçilik təkhakimiyyətə əsaslanırdı. Xanın yanında yaxın adamlarından ibarət olan məşvərətçi orqan – *divan* və ya *xan şurası* fəaliyyət göstərirdi. Burada başlıca olaraq müharibə və sülh məsələləri, vergilərin bölüşdürülməsi, yeni vergilərin təyin edilməsi, mülki və cinayət işləri müzakirə edilirdi. *Xan* qeyri-məhdud hakimiyyətə malik idi. Bütün hakimiyyət – *qanunverici, icraedici* və *məhkəmə* onun əlində cəmlənmişdi. Hərbi işə xan rəhbərlik edir, qoşunun ali baş komandanı sayılır, öz bayrağı və təbilinə malik idi. Xan hakimiyyəti irsi idi.

Xanlığın idarə olunmasında *saray məmurları* mühüm rol oynayırdı. Xanın ən yaxın köməkçisi *vəzir* idi. Qarabağ xanlığında İbrahimxəlil xanın hakimiyyəti dövründə vəzir vəzifəsini görkəmli Azərbaycan şairi Molla Pənah Vaqif, İrəvan xanlığında Məhəmməd xanın (1784-1805) zamanında isə Məhəmməd Müslim Qüdsi icra etmişdilər.

Xan sarayında vəzirdən başqa *sərkəri-ali* və ya *sərkərəli* (maliyyə işlərinə baxan), *eşikağası* (xan xəzinəsinin məxaric işlərini və xanın şəxsi təsərrüfatını idarə edən), *sandıxdarağası* və ya *anbarağası* (xəzinə işlərinə baxan) kimi vəzifələr də mövcud idi.

Xanlıqlarda saray məmurları ilə birlikdə *maliyyə, asayiş xidməti* və *hərbi qüvvəyə* xüsusi fikir verilirdi. Maliyyə fəaliyyətinin əsasını pul sisteminin yaradılması, onun tənzimlənməsi, vergilərin toplanması təşkil edirdi. Bu sahədə *naib, yasovul, kəndxudalar,* xüsusi olaraq xan tərəfindən təyin olunan *sərkərlər* əsas rol oynayırdılar. Bütün bu vəzifələr çox vaxt irsən keçirdi. Onlar məvacib almır, əvəzində mahaldan toplanan gəlirin onda bir hissəsini götürürdülər.

Məhsulla alınan vergilərin yığılması ilə *darğalar* məşğul olurdu. O, bazara nəzarət edir, ərzaq məhsullarına qiymətləri təyin edir, mübahisəli məsələlərin həlli zamanı münsif kimi çıxış edirdi. Darğa bəzən şəhərlərdə gecələr asayişin qorunmasına da nəzarət edirdi. Onların sərəncamında *yüzbaşılar* və *onbaşılar* da olurdu.

Şəhər *kələntər* tərəfindən idarə edilirdi. Şəhər qalasının rəisi *qalabəyi* adlanırdı. Naxçıvan xanlığında şəhərlərdə gecələr asayişin qorunmasına *əsəsbaşı* nəzarət edirdi.

Xanlıqlar inzibati cəhətdən *mahallara* bölünürdü. Relyefə və tutduqları yeni torpaqlarla bağlı xanlıqların bəzisinin ərazisi böyük, bəzilərininki isə nisbətən kiçik olduğundan mahalların sayı 5-21 arası dəyişirdi. Gəncə xanlığında 5, Şəki xanlığında 8, Lənkəran xanlığında 12, Urmiya xanlığında 14, İrəvan xanlığında 15, Qarabağ xanlığında isə 21 mahal vardı. Mahal naibləri həm inzibati, həm də

məhkəmə hakimiyyətinə malik idilər.

*Kovxa, kəndxuda* mahallara daxil olan kəndləri idarə edirdilər. Onlar maaş almır, xidmətləri müqabilində toplanan verginin bir hissəsini götürürdülər. Kəndxudalar və kovxalar kənd icmaları tərəfindən seçilirdi. Onların başlıca vəzifəsi icma üzərinə düşən vergiləri toplamaqdan və kənddə asayişin qorunmasından ibarət idi.

Azərbaycan xanlıqlarında idarəetmə sistemi bütövlükdə xanın qeyri-məhdud hakimiyyətinin qorunmasına, onun idarəsinin sözsüz yerinə yetirilməsinə əsaslanırdı və öhdəsinə düşən hər cür vəzifəni lazımınca yerinə yetirirdi.

***Xanlıqlarda hərbi iş və məhkəmə***

***Ordu quruculuğu.*** Hər bir xanlığın qüdrəti onların malik olduğu hərbi qüvvələrin miqdarı və keyfiyyətindən asılı idi. Xanlıqların hamısında *daimi nizami qoşun* vardı. Onların özəyini *xan qvardiyası, maaflar, nökərlər, çaparlar* və *bəy drujinaları* təşkil edirdi. Xanlıqların daimi silahlı qüvvələri kənd təsərrüfatı işlərindən azad edilən muzdlu döyüşçülərdən ibarət idi. Onlar *süvari, piyada* və *zənburəkçi-topçu* dəstələrinə bölünürdülər.

Qoşunun əsas hissəsi *qeyri-nizami* olub *maaflar* və *elatlardan* təşkil olunurdu. Zərurət zamanında mahalların və kəndlərin piyada tüfəngçiləri mahal bəyləri ilə birlikdə qoşunun sıralarına alınırdılar. Qarabağ ən böyük hərbi qüvvəsi olan xanlıqlardan idi. Xan hərbi zərurət olduqda 10-15 min döyüşçü toplaya bilirdi. Şirvan və Şəki xanları isə 3 minə qədər döyüşçü çıxara bilirdi. Quba xanı böyük miqdarda silahlı nökərlərə və maaflara malik idi. Qoşun 10, 100 və 1000 nəfərə ayrılırdı. Bu dəstələrə başçılıq edənlərə müvafiq olaraq *onbaşı, yüzbaşı* və *minbaşı* deyilirdi.

Hər bir xanlığın qüdrəti onların malik olduğu hərbi qüvvələrin sayı və keyfiyyətindən asılı idi. Qismən yüksək ruhlu, yaxşı silahlanmış və bacarıqlı döyüşçülərə malik olmayan xanlıq, şübhəsiz ki, uzun müddət öz istiqlaliyyətini qoruya bilməzdi. Hərbi qüvvə təkcə xarici təhlükədən qorunmaq üçün deyil, həm də daxili əmin-amanlığı qorumaq üçün lazım idi.

Daimi silahlı qüvvələr əsasən müasir odsaçan silahlarla silahlanmışdılar. Başlıca odlu silah növü *"dayan-doldurum"* adı almış tüfənglər idi.

Hər xanlığın qoşunlarının ali baş komandanı xan sayılır və öz bayrağı və təbilinə malik idi. Qoşunun bilavasitə komandanı adətən sultanlar sırasından təyin edilir və naib, sərkər-ali, yüzbaşı və s. rütbə alırdı. Bu vəzifədə olan şəxs təkcə xan qarşısında cavabdeh idi.

Xanlar xanlığın müdafiə qabiliyyətini gücləndirmək üçün qalalar və istehkamlar inşasına xüsusi diqqət yetirirdilər. Məlum olduğu kimi, Pənahəli xan hakimiyyətinin ilk dövründəcə Bayat və Şahbulağı qalalarını inşa etmişdi. Xanlığın ən etibarlı qalası Şuşa qalası idi. Şuşa qala divarlarının möhkəmliyi Ağa

Məhəmməd şah Qacarın hücumları zamanı çox ciddi sınaqlardan uğurla keçmişdi. Şuşanın yolu üstündə də iki qala – Ağoğlan və Əsgəran qalaları da inşa edilmişdi.

***Məhkəmə işinin təşkili.*** Xanlığın idarə olunmasında *məhkəmə* orqanlarının böyük rolu vardı. Burada başlıca yeri *şəriət məhkəməsi* tuturdu. Bu sahədə xanın müstəsna hüququ vardı.

Məhkəmə işinin aparılması xanlıqlarda müxtəlif cür təşkil olunmuşdu. Quba xanlığında bütün məhkəmə hakimiyyəti *dini məhkəmələrə* məxsus idi, Naxçıvan xanlığında isə əksinə nəinki cinayət işləri, hətta bəzi mülki işlər də mahal bəylərinin, bölüklərin və ya yanında eşikağası adlanan xüsusi məhkəmə məmuru olan xanın özünün yurisdiksiyasına daxil idi.

Qarabağ və bir sıra başqa xanlıqlarda məhkəmə hakimiyyəti şəriət məhkə-mələrinə məxsus idi və yalnız ən mühüm işlərə bilavasitə xanın özü baxırdı. Gəncə, Şəki və başqa xanlıqlarda məhkəmə hakimiyyəti dini hakimlər (qazılar), mahal və şəhər rəisləri arasında bölünürdü, həm də şəxsi mənafelər çərçivəsindən çıxan ən mühüm işlər xanın özü tərəfindən həll olunurdu. Bütün bu fərqlərinə baxmayaraq, bütün xanlıqlarda müsəlman hüququnun təsiri çox əhəmiyyətli idi. Dini-şəriət məhkəməsi ən müqəddəs və ədalətli sayılırdı.

### *Xanlıqlar dövründə elm və mədəniyyət*

***Maarif.*** XVIII əsrin I yarısında yadellilərin basqınları, Azərbaycan ərazisində iri dövlətlər arasında gedən müharibələr, dağıdıcı ara müharibələri nəticəsində ölkənin təsərrüfat-ticarət və mədəni həyatının pozulması mədəniyyətin, o cümlədən maarifin inkişafına da mənfi təsir göstərirdi.

*Məktəblər* məscidlərin nəzdində, dükanlarda və ya şəxsi evlərdə yerləşir və adətən onları quranların adı ilə adlanırdı. Qıraq Salahlıda Molla Cəbrayıl məktəbi, Şıxlıda Molla Vəli Vidadi məktəbi, Gəncə və Şuşada Molla Pənah Vaqif məktəbi, İbrahimxəlil xan məktəbi və s.

Məktəbi məktəbdar idarə edirdi. O, həm müəllim, həm də məktəb rəisi idi. Müəllimlərə maaş müqabilində şagirdlərin valideynləri pul, peşkəş və bayramlıq göndərirdilər. Yalnız müəyyən maddi imkana malik ailələrin oğlan uşaqları 6 yaşından məktəbə göndərilirdi. Dərs müddəti adətən gündə 6-8 saat davam edirdi. Dərs vəsaiti çox məhdud idi. Şagirdlər əlifbanı öyrəndikdən sonra Quranın "Cüzəmmə" adlı kiçik bir hissəsini oxumağa başlayırdılar. Sonra isə onlar Quranı, Sədinin "Gülüstan"ını və başqa bu kimi kitabları oxuyurdular.

Məktəblərdən fərqli olaraq *mədrəsələr* orta ali tədris müəssisələri rolunu oynayırdı. İxtisaslı ruhani kadrlar hazırlayan mədrəsələr adətən böyük məscidlərin, xüsusilə cümə məscidlərinin nəzdində yerləşirdi. Mədrəsədə təlim edən şəxs *müdərris,* təhsil alan şəxs isə *tələbə* adlanırdı. Tələbə mədrəsədə Qurandan əlavə

islam fəlsəfəsi, fiqh (islam qanunları), ərəb-fars dillərini də öyrənirdi. Mədrəsələrdə ədəbiyyat, riyaziyyat, astronomiya elmləri də tədris olunurdu.

İstər məktəblərdə, istərsə də mədrəsələrdə hüsn-xəttə xüsusi diqqət yetirilir, hətta bu və ya digər şəxsin savad səviyyəsi onun xəttini gözəlliyi ilə müəyyən olunurdu. Məktəb və mədrəsələrdə şagirdlərə və tələbələr fiziki cəza da tətbiq edilirdi. Mədrəsələrin saxlanılmasına çəkilən xərc vəqf torpaqları hesabına ödənilirdi.

***Elm.*** Xanlıqlar dövründə Azərbaycanda elm sahəsində elə bir ciddi irəlləyiş baş verməmişdi. Dövrün məşhur alimləri coğrafiyaşünaslar Hacı Zeynallabdin Şirvani (1780-1838), onun kiçik qardaşı Hacı Məhəmmədəli Şirvani (1783-1831) və tarixçi Əbdürəzzaq bəy Dünbuli (1762-1828) olmuşdur.

H.Z.Şirvani demək olar ki, ömrünün 37 ilini səyahətdə keçirmiş, Avropa, Asiya və Afrika ölkələrində 60 min kilometrdən çox yol qət etmişdir. O, səyahətlər zamanı “Büstanus-səyahət” (Səyahət bostanı) “Kəşfül maarif” (Mərifətlərin kəşfi) kimi məşhur əsərlərini yazmışdı. H.Z.Şirvani görkəmli coğrafiyaşünas, habelə tarixçi, maarifpərvər filosof və şair kimi tanınmışdır.

H.M.Şirvani Hindistan, Əfqanıstan, İran, İraq, Ərəbistan, Misir, Türkiyə və s. ölkələri gəzmiş, öz təəsürratını “Həqiqət əl-həqqaiq” (“Həqiqətlər həqiqəti”) adlı əsərində əks etdirmişdir.

Təbriz xanı Nəcəfqulu xanın oğlu, tanınmış tarixçi filosof və həm də şair olan Əbdürrəzzaq bəy uzun müddət Təbriz-Xoy xanlığının vəziri olmuşdur. O, Fətəli şahın hakimiyyəti dövründə baş verən hadisələrdən bəhs edən “Measere-Sultaniyyə” (“Sultanın unudulmaz əməlləri”), “Tarix-i Dənabel” (“Hürrlərin həvəsi və möminlərin əyləncəsi”) və s. əsərlər yazmışdır. Azərbaycan tarixini öyrənmək üçün bu əsərlərin böyük əhəmiyyəti vardır.

***Ədəbiyyat.*** XVIII əsrdə Azərbaycanda baş vermiş mürəkkəb sosial-siyasi hadisələr maraqlı nəsr nümunələrində də öz əksini tapmışdır. Xanlıqlar dövründə şifahi xalq ədəbiyyatı və aşıq şeiri daha da inkişaf etməkdə idi.

Bu dövrdə tanınmış şairlərdən biri də Tikmədaşlı Xəstə Qasım (1684-1760) idi. Təbrizin Tikmədaş kəndində anadan olmuş el aşığı doğma vətən torpağını qarış-qarış gəzmiş, onu məhəbbət və ilhamla tərənnüm etmişdir.

XVIII əsr Azərbaycan poeziyasının aparıcı xəttini *müxəmməs* (ərəbcə beşlik deməkdir) formasında yazılmış irihəcmli şeirlər təşkil edirdi. Bu şeirlərdə tarixi hadisələrə söykənən sosial-siyasi hadisələr öz əksini tapırdı.

Şair Nəbi tarixi mənzumələri ilə daha çox şöhrət qazanmışdı. O, öz şeirərinin bir hissəsini Şəki xanlarına həsr etmişdir. Nəbi həm klassik şeir, həm də şifahi xalq ədəbiyyatı üslubunda şeirər yazırdı. O, şeirlərində xalqın həyatı, onun zülmkarlarla mübarizəsinə də yer verirdi.

İrəvan xanının vəziri olmuş Mirzə Müslüm Qüdsinin (1752-1808) “Divan”ına daxil olan 300 beytdən ibarət “İrəvanın vəsfi” məsnəvisi İrəvanı, onun tarixi, coğrafiyası, mədəniyyəti, iqtisadiyyatı, təbiəti, insanları və s. haqqında məlumat verir.

XVIII əsr Azərbaycan poeziyasının zirvəsini Molla Pənah Vaqif (1717-1797) yaradıcılığı təşkil edir. Vaqif Azərbaycan ədəbiyyatına onun inkişafına böyük xidmətlər göstərən klassik bir şair kimi daxil olmuşdur. Vaqifin şeirləri öz realizmi və milli təravəti, orjinallığı ilə səciyyəvidir. Vaqif yaradıcılığında məhəbbət mövzusu üstün yer tuturdu, onun gözəlliyə həsr olunmuş şeirlərində XVIII əsr Azərbaycan ziyalılarının əxlaqi və estetik görüşləri öz əksini tapırdı. Vaqif ilahi gözəllikdən deyil, gerçək, həyati gözəllikdən bəhs edirdi. Şairin bir sıra şeirlərində, o cümlədən “Görmədim” rədifli müxəmməsində zorakılıq və qəddarlığın, yalan və riyakarlığın hökmran olduğu cəmiyyətin ictimai ədalətsizliyinə qarşı qəzəbli etiraz səsi eşidilməkdədir.

Dövrün görkəmli şairi Molla Vəli Vidadi (1709-1809) isə qoşma və gəraylı ustadı kimi tanınır. Vidadi nəinki klassik Azərbaycan ədəbiyyatını, habelə Şəmkir və Qazax tərəfində geniş yayılmış aşıq şeirini çox yaxşı bilirdi. Yadelli işğalçıların qarətçi basqınları və o dövrdə xanların ara müharibələri Vidadiyə ağır təsir bağışlamış, onun yaradıcılığında bədbin və mistik motivlərə səbəb olmuşdur.

Vaqif və Vidadinin yaradıcılığında klassik və xalq ənənələri vəhdət təşkil edir. Vidadinin dünyaya baxışı Vaqiflə yazışmalarında özünü parlaq şəkildə göstərmişdir. Onun “Vaqif”, “Çoxdandır”, “Ağlarsan” və s. şeirləri böyük əhəmiyyətə malikdir.

***İncəsənət.*** Xanlıqlar dövründə Azərbaycanda daş və ağac üzərində bədii naxışaçma, döymə metal məmulatı, xalçaçlıq, bədii toxuculuq kimi *dekorativ-tətbiqi sənət* sahələri inkişaf etmişdi. Müxtəlif dekorativ incəsənət növləri arasında aparıcı yer xalçaçılığa məxsus idi. Bu dövrdə də Quba, Bakı, Şamaxı, Qarabağ, Təbriz, Gəncə, Qazax və Ərdəbil xalça məmulatı ilə məşhur idi. Azərbaycan xalçaları əvvəl olduğu kimi iki qrupa bölünürdü: *ornamentli* və *süjetli-mövzulu* xalçalar. İkinci qrupa aid xalçalar nisbətən az toxunurdu və artıq əvvəlki kimi kompozisiya mürəkkəbliyinə və süjet rəngarəngliyinə malik deyildi. Xalçalar *xovlu* (xalça, xalı, gəbə və s.) və *xovsuz* (palaz, kilim, cecim, sumağı, zili və s.) olurdu.

XVIII əsrdə Şamaxı və Təbriz ilə yanaşı, Gəncə, Şəki və Marağada da qədim parçalar toxunurdu. *Darai, tafta* kimi ipək parçalar Azərbaycandan uzaqlarda şöhrət qazanmışdı. *Zərbaft* (ipək parçanın üzərində qızıl, yaxud gümüş saplarla haşiyələr çəkilirdi) parçalar xüsusilə qiymətli idi. Bu parçalar əsasən Rusiyaya və İrana aparılırdı.

XVIII əsrdə məişət əşyalarını, paltarları bəzəyərkən *təkəlduz* və *güləbətin* kimi ənənəvi texnika ilə yanaşı, müxtəlif metal-gümüş tunc halqalar, borucuqlardan geniş istifadə olunurdu. Xanlıqlar dövrünün yüksək naxış nümunələrindən Qarabağ xanının təkəlduzla tikilmiş papağı, Naxçıvanda güləbətinlə bəzənmiş qadın arxalığı, Şuşada hazırlanmış muncuqlu əl ağacını qeyd etmək olar.

***Memarlıq abidələri.*** Bu dövrdə memarlığın inkişafında əksər xanlıqlarda şəhərətrafı müdafiə sistemlərinin inşası mühüm rol oynamışdır. Dövrün şəhərsalma fəaliyyətində Şəki şəhərlərinin yenidən tikintisində və Şuşa şəhərinin salınmasında təbii şəraitdən ustalıqla istifadə edilmişdir.

Şəki, Şuşa və Naxçıvanda XVIII əsr Azərbaycan memarları tərəfindən yaradılmış bir çox mədəniyyət abidəsi indi də saxlanmaqdadır.

Xanlıqlar dövrünün memarlıq abidələri içərisində Şəki xan sarayı (1762/64) və Şəkixanovların evi, habelə, Aşağı və Yuxarı karvansaralar dünya əhəmiyətli tarixi abidələrdir. Şəki xan sarayındakı zəngin divar naxışları (həndəsi, nəbati və süjetli), həm rəngkarlıq, həm də dekorativ-tətbiqi sənətin sintezinin nümunəsi hesab edilən saray rəsmləri və şəbəkələr (yapışqan və ya mismar istifadə etmədən qiymətli ağac parçalarını rəngli şüşələrlə tamamlayaraq hazırlanan pəncərələr) bu gün də insanı valeh edir.

XVIII əsrin II yarısında Qarabağda tikilən memarlıq abidələri içərsində hasar, bina, məscid, hamam və bazarları olan Bayat, Şahbulaq və Şuşa qalalarını göstərmək olar. Şuşada birinci böyük məscid 1768-1769-cu illərdə tikilmişdi. 1788-1789-cu illərdə iki dağ arasında Əsgəranın hər iki qalası tikilmişdi. Bunlardan əlavə, müxtəlif vaxtlarda Xəzinə qayasında təhlükəli vaxtlarda xanın qiymətli əşyaları saxlanılan binalar, Şuşa qalasından bir qədər aralı yerdə xan bağı, Ağdamda Pənahəli xan və onun övladlarının qəbirləri üzərindəki gümbəzlər tikilmişdir.

1764-cü ildə İrəvan şəhərində salınmış Göy məscid və ya Hüseynəli xan məscidi (hazırda muzey kimi istifadə olunur), İrəvan Xan sarayı, onun Güzgülü salonu (1791) və Yay köşkü özünəməxsus yer tuturdu. İrəvan şəhərində mövcud olan XVIII əsr memarlıq abidələrindən Novruzəli bəy məscidi də daxil olmaqla, Xan sarayına məxsus salon və köşklər 1914-1918-ci illərdə erməni vandalizminin qurbanı olmuş, yerlə yeksan edilmişdir. Xanlıq dövrünün abidəsi olan Hacı Cəfər bəy məscidi (Günlüklü məscid) isə 1988-ci ildə ermənilər tərəfindən yandırılmışdır.

***Musiqi və rəssamlıq.*** XVIII əsrdə aşıq yaradıcılığı xalqın böyük məhəbbətini qazanmışdı. Aşıq şeiri musiqiyə də güclü təsir göstərməkdə idi. Musiqi xadimləri xalq melodiyalarını yeni məzmunla zənginləşdirirdilər. Aşıqlar yeni dastanlardan istifadə edərək yeni nəğmələr qoşur və onları sazda ifa edirdilər. Xanəndələr

qədim muğamlara yeni təsniflər qoşur, xalq arasında geniş şöhrət qazanan yeni mahnılar yaradırdılar. Azərbaycan xanəndələri həm də aşıqlar və şairlər tərəfindən yaradılan qəzəl və qoşmaları ifa edirdilər.

XVIII əsrdə ən çox məşhur olan musiqi alətləri saz, kamança, balaban, zurna, tütək, nağara, dəf idi.

Azərbaycan rəssamları bina, qab, silah, qəbir daşı və s. bəzədilməsində istifadə olunan ornament sənətini yüksək dərəcədə inkişaf etdirmişdilər.

XVI-XVII əsrlərdə öz inkişafının zirvəsinə çatmış miniatür sənəti və tətbiqi sənətin digər növləri XVIII əsrdə tədricən tənəzzülə uğrayır və əvvəlki əhəmiyyətini itirirlər. Bu dövrün nisbətən çox yayılmış təsviri sənət növü divar təsvirləri idi. Bu cür təsvirlərdən günümüzə çox az hissəsi gəlib çatmışdır. Ancaq mənbələr bu sənət növlərinin XVIII əsrdə Azərbaycanda geniş yayıldığını göstərirlər.

Mirzə Qədim İrəvaninin İrəvan xan sarayındakı şəkilləri yağlı boyalarla kətan üzərində çəkilmiş, sonra divara yapışdırılmışdı. Azərbaycanın divar təsvirlərində fantastik və real heyvan təsvirləri ilə yanaşı portret xarakterli və sujetli-tematik kompozisiyalara da rast gəlmək olur. Şəki xanlarının sarayında portret təsvirləri və sujetli sənətlər indi də qalmaqdadır. Bunların içərisində Bisütun dağını yaran Fərhadın surəti xüsusilə diqqəti cəlb edir.